Yeddinci çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI VƏ STENOQRAMLARI

Birinci sessiya
Payız

19-cu cild

29 dekabr 2024-cü il

Milli Məclisin nəşri
Bakı – 2024

Milli Məclis Aparatının
Redaksiya və nəşr işləri şöbəsində
hazırlanmışdır

# YEDDİNCİ ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# I SESSİYASI İCLASININ

# PROTOKOLU № 20

*Milli Məclisin iclas salonu.*
*29 dekabr 2024-cü il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 116 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.04 dəq.) |
| İştirak edir | 112 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**Mahirə Hüseynova**, Azərbaycan Dövlət Pedaqoji Universitetinin prorektoru.

**Elçin İsmayılov**, Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun Toponimika şöbəsinin müdiri.

**Sabir Rüstəmxanlı**, Xalq şairi.

**Cavid İskəndərov**, Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin İnzibati ərazi və bələdiyyə məsələləri üzrə qanunvericilik sektorunun müdiri.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. Azərbaycan Respublikasının Milli Məclisi yanında Toponimiya komissiyasının tərkibi haqqında.

2. “Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Konstitusiya qanununun layihəsi (birinci oxunuş).

3. Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, “Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında”, “Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamənin təsdiq edilməsi barədə” və “Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

4. “Azərbaycan Respublikasında mənzil fondunun özəlləşdirilməsi haqqında”, “Valyuta tənzimi haqqında”, “Xidməti və mülki silah haqqında”, “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında”, “Notariat haqqında”, “İcra məmurları haqqında”, “İcra haqqında”, “Lotereyalar haqqında”, “Daşınmaz əmlakın dövlət reyestri haqqında” və “Media haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

5. Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində, "Əhalinin sağlamlığının qorunması haqqında", "Yol hərəkəti haqqında", "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında", "Tibbi sığorta haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında", "Ünvanlı dövlət sosial yardımı haqqında", "Sosial müavinətlər haqqında", "Əmək pensiyaları haqqında", "Təhsil haqqında", "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında", "İcbari sığortalar haqqında", "Lisenziyalar və icazələr haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında" və "Məşğulluq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

6. "Qaz təchizatı haqqında", "Dövlət rüsumu haqqında", "İxrac nəzarəti haqqında", "İxrac məqsədli neft-qaz fəaliyyətinə xüsusi iqtisadi rejimin tətbiqi haqqında", "Elektroenergetika haqqında" və "Energetika haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

7. Azərbaycan Respublikasının Mülki Məcəlləsində və "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

8. "Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respub-

likasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

9. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində və “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

10. Dünya azərbaycanlılarının həmrəyliyi günü münasibəti ilə Azərbaycan Respublikası Milli Məclisinin Müraciətinin təsdiq edilməsi haqqında.

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Jalə Əliyeva, Vüqar Bayramov, Sahib Alıyev, Tural Gəncəliyev, Ceyhun Məmmədov, Aydın Mirzəzadə, Elşən Musayev, Siyavuş Novruzov, Zahid Oruc, Əli Əhmədov, Bəhruz Məhərrəmov, Əli Hüseynli, Hikmət Məmmədov, Aydın Hüseynov, Asif Əsgərov, Səyyad Salahlı, Göydəniz Qəhrəmanov, Vüqar Rəhimzadə, Tənzilə Rüstəmxanlı, Gülşən Paşayeva

**Təklif:** Gündəlik qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.06 dəq.) |
|---|---|
| Lehinə | 114 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 115 |

Nəticə: Qəbul edildi

**1. Azərbaycan Respublikasının Milli Məclisi yanında Toponimiya komissiyasının tərkibi haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Siyavuş Novruzov, Sabir Rüstəmxanlı

**Təklif:** Qərar qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.20 dəq.) |
|---|---|
| Lehinə | 115 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 115 |

Nəticə: Qəbul edildi

**2. "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Konstitusiya qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli, Zahid Oruc

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.30 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

**3. Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında", "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" və "Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.30 dəq.) |
|---|---|
| Lehinə | 113 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 113 |
| Nəticə: Qəbul edildi | |

**4. "Azərbaycan Respublikasında mənzil fondunun özəlləşdirilməsi haqqında", "Valyuta tənzimi haqqında", "Xidməti və mülki silah haqqında", "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında", "Notariat haqqında", "İcra məmurları haqqında", "İcra haq-**

**qında", "Lotereyalar haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında" və "Media haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov, Arzu Nağıyev, Elşən Musayev, Zahid Oruc

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.32 dəq.) |
| Lehinə | 114 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 114 |

Nəticə: Qəbul edildi

**5. Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində, "Əhalinin sağlamlığının qorunması haqqında", "Yol hərəkəti haqqında", "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında", "Tibbi sığorta haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında", "Ünvanlı dövlət sosial yardımı haqqında", "Sosial müavinətlər haqqında", "Əmək pensiyaları haqqında", "Təhsil haqqında", "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında", "İcbari sığortalar haqqında", "Lisenziyalar və icazələr haq-**

**qında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında" və "Məşğulluq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev, Elşən Musayev, Əhliman Əmiraslanov, Zahid Oruc, Azər Əmiraslanov, Anar İsgəndərov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.35 dəq.) |
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 113 |

Nəticə: Qəbul edildi

**6. "Qaz təchizatı haqqında", "Dövlət rüsumu haqqında", "İxrac nəzarəti haqqında", "İxrac məqsədli neft-qaz fəaliyyətinə xüsusi iqtisadi rejimin tətbiqi haqqında", "Elektroenergetika haqqında" və "Energetika haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov, Sadiq Qurbanov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.36 dəq.) |
| Lehinə | 112 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 113 |

Nəticə: Qəbul edildi

**7. Azərbaycan Respublikasının Mülki Məcəlləsində və "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Hicran Hüseynova, Əli Hüseynli

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.39 dəq.) |
|---|---|
| Lehinə | 113 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 113 |

Nəticə: Qəbul edildi

**8. "Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Anar İsgəndərov

**Təklif:** Qanun qəbul edilsin

**Səsvermənin nəticələri** (saat 12.40 dəq.)

| | |
|---|---|
| Lehinə | 112 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 113 |

Nəticə: Qəbul edildi

**9. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli, Azər Əmiraslanov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.43 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |

Nəticə: Qəbul edildi

**10. Dünya azərbaycanlılarının həmrəyliyi günü münasibəti ilə Azərbaycan Respublikası Milli Məclisinin Müraciətinin təsdiq edilməsi haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Samir Vəliyev

**Təklif:** Qərar qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.50 dəq.) |
|---|---|
| Lehinə | 112 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 112 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*29 dekabr 2024-cü il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik edir*

**Sədrlik edən.** Hörmətli həmkarlar, hörmətli qonaqlar, hörmətli media nümayəndələri, hamınızı xoş gördük. Hörmətli deputatlar, xahiş edirəm, qeydiyyatdan keçin. Buyurun.

| **Qeydiyyat** | (saat 11.04 dəq.) |
|---|---|
| İştirak edir | 112 |
| Yetərsay | 83 |

Yetərsay var, iclasa başlaya bilərik.

Hörmətli həmkarlar, bildiyiniz kimi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə 2025-ci il ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edilmişdir. Möhtərəm Prezidentin bu qərarı xalqımızın və dövlətimizin Konstitusiya dəyərlərinə və suverenlik prinsiplərinə sadiqliyini bir daha təsdiq edir.

Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul edilmiş ilk Konstitusiyamız müasir Azərbaycanın hüquqi, demokratik və dünyəvi dövlət kimi formalaşmasında önəmli rol oynamışdır. Xalqımız Konstitusiyada bəyan edilən demokratiya, ədalət və qanunun aliliyi yolu ilə gedərək cəmiyyət və dövlət həyatının bütün sahələrində heyrətamiz uğurlar qazanmışdır.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə İkinci Qarabağ müharibəsində və antiterror əməliyyatında ərazi bütövlüyümüzün və suverenliyimizin bərpa olunması xalqımızın və dövlətimizin həyatında müstəsna əhəmiyyətli hadisə olmuşdur. Bu hadisə həm də ölkəmizin bütün ərazisində Konstitusiyamızın hüquqi qüvvəsinin bərpasını təmin etmişdir.

Hörmətli həmkarlar, inamla söyləmək olar ki, "Konstitusiya və Suverenlik İli" milli dövlətçilik şüurunun daha da möhkəmlənməsinə töhfə verərək ölkə vətəndaşlarının ümumi dəyərlər və gələcəyə birgə baxış əsasında daha sıx birləşməsinə kömək göstərəcək. Ölkəmiz tarixi mirasına, ötən dövrdə əldə etdiyi nailiyyətlərə əsaslanaraq qlobal çağırışlara cavab vermək əzmini nümayiş etdirəcək. Bununla yanaşı, Azərbaycanın Konstitusiya dəyərlərinə və suverenlik prinsiplərinə bağlılığı beynəlxalq birliyin məsuliyyətli və tərəqqipərvər üzvü kimi onun nüfuzunu daha da yüksəldəcəkdir.

İndi isə hörmətli həmkarlar, xahiş edirəm, gündəliyə münasibət bildirəsiniz. Buyurun.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.06 dəq.) |
| Lehinə | 114 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 115 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, gündəlik qəbul edildi.

Hörmətli həmkarlar, gündəlikdə, gündəmdə olan məsələlərlə bağlı kim çıxış etmək istəyirsə, buyursun, yazılsın. Jalə Əliyeva. Buyurun.

**Jalə Əliyeva**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputat həmkarlar, qonaqlar, media mənsubları. 2024-cü ili uğurla başa vurmaqdayıq. Bu il Azərbaycanımızın bütövlüyünün, suverenliyinin təsdiqi ili olaraq tarixə daxil olur. Biz Azərbaycan müstəqilliyini əldə etdikdən sonra bu il ilk dəfə olaraq vətənin bütün suveren, müstəqil ərazilərində prezident seçkisi keçirdik. Hər bir Azərbaycan vətəndaşı öz iradəsini bir daha bu seçkidə təsdiq etdi. Xalq öz dövlətinə, dövlətçiliyinə, gələcəyinə, inkişafına səs verdi, ölkə Prezidenti cənab İlham Əliyevi yekdilliklə yenidən Prezident seçdi.

Daha sonra suveren ölkəmizdə ilk dəfə parlament seçkisi keçirildi. Azərbaycan bu il uğurlarının davamı olaraq çox möhtəşəm bir tədbirə – COP29 konfrasına ev sahibliyi etdi. Azərbaycan bu tədbirə, sadəcə, ev sahibliyi etmədi, bütün dünyaya bir daha bu konfrans vasitəsi ilə öz mövqeyini, sarsılmazlığını, gücünü, möhtəşəmliyini nümayiş etdirdi.

2024-cü ildə daha əvvəlki illərdə başlatdığımız uğurlu

sosial islahatlar davam etdirildi. Ötən gün cənab Prezident tərəfindən 2025-ci il üçün nəzərdə tutulan mükəmməl dövlət büdcəsi təsdiq edildi.

Bir neçə gün əvvəl 5-ci sosial islahatlar paketinin tərkib hissəsi olan müavinətlərin, pensiyaların, əməkhaqlarının artırılması haqqında sərəncam imzalandı. Bu sərəncam da büdcəmizin möhkəmləndirilməsinin bariz nümunəsi, Azərbaycan insanının yaxşı həyat tərzinin təminatçısı olan dövlətimizin yeni uğurudur.

2024-cü ildə ölkəmiz bütün sahələrdə – iqtisadi, sosial, beynəlxalq, diplomatiya, ordu quruculuğu, mədəniyyət, idman sahələrində uğurlara imza atdı, zirvələr fəth etdi.

Azərbaycan getdikcə, sadəcə, bölgənin deyil, artıq dünyanın nüfuzlu ölkəsinə çevrilməkdədir. Azərbaycan bu gün sabitlik, təhlükəsizlik adası, əmin-amanlıq, iqtisadi inkişaf ölkəsidir. Bütün bunların təməlində xalqın öz dövlətini dəstəkləməsi, dövlətinin də milli mənafelərə uyğun siyasət həyata keçirməsi dayanır.

Təbii ki, bu birliyi Qarabağ Zəfəri daha da möhkəmləndirdi. Birliyimiz haqqında danışan cənab Prezident deyir: “Bizim birliyimizi pozmaq istəyənlər nə qədər cəhd göstərsələr də, buna nail ola bilməyiblər və heç vaxt nail ola bilməyəcəklər. Çünki biz hamımız bir amal uğrunda birləşmişik”.

Cənab Prezidentdən gətirdiyim bu iqtibasla çıxışımın sonunda başda Prezident cənab İlham Əliyev və Birinci vitse-prezident xanım Mehriban Əliyeva olmaqla hər bir azərbaycanlını qarşıdan gələn Dünya azərbaycanlılarının həmrəyliyi günü və Yeni il münasibəti ilə təbrik edir, xalqımıza, ölkəmizə, dövlətimizə, parlamentimizə yeni zəfərlər qazanmağı arzu edirəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Vüqar Bayramov. Buyurun.

**Vüqar Bayramov**. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Hörmətli xanım sədr, Sizin qeyd etdiyiniz kimi, Azərbaycanın Prezidenti cənab İlham Əliyevin imzaladığı Sərəncamla 2025-ci il "Konstitusiya və Suverenlik İli" olacaq. Konstitusiyamızın qəbulu və suverenliyimizin tam bərpasının əsası məhz Ümummilli Liderin hakimiyyətə qayıtması ilə formalaşdırıldı. 1991–1993-cü illərdə o vaxtkı hakimiyyətin yarıtmaz fəaliyyəti bütün sahələrdə kəskin böhrana və idarəetmədə ciddi nöqsanlara və anarxiyaya gətirib çıxarmaqla yanaşı, vətəndaşlarımızın ən adi konstitusion hüquqlarının qorunması ilə bağlı ciddi problemlər formalaşdırmışdı. Məhz o dövrdəki hakimiyyətin yaratdığı anarxiya o zaman ölkə Konstitusiyasının qəbuluna imkan vermədi.

1993-cü ilin iyununda Milli Liderin hakimiyyətə qayıtması Azərbaycan üçün böyük zəfərlərə imza atmanın təməlini formalaşdırdı. Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tam bərpa edən, Qarabağı və Şərqi Zəngəzuru işğaldan azad edən gənclər Ulu Öndər Heydər Əliyev məktəbinin, möhtərəm Prezident İlham Əliyevin idarəçiliyinin yetirmələridir.

Suverenliyimizin tam bərpasının banisi Milli Liderimiz, onu reallaşdıran isə müzəffər Ali Baş Komandanımız və şanlı ordumuz oldu. Hazırda Azərbaycan tarixinin ən şanlı və ən parlaq günlərini yaşayır. Azərbaycan MDB-də münaqişəyə məruz qalan ölkələr arasında ərazi bütövlüyünü və suverenliyini tam bərpa edən ilk dövlətdir. 44 günlük müharibədə əldə etdiyimiz Zəfərlə yalnız suverenliyimiz, eləcə də ərazi bütövlüyümüz tam bərpa olunmadı, eyni zamanda, bu, həm də Qarabağ və Şərqi

Zəngəzurda yeni quruculuq mərhələsinin başlanması anlamına gəldi. Bu gün uzun müddət həsrətlə baxdığımız torpaqlarda suverenliyimizin tam bərpasından sonra böyük quruculuq işləri həyata keçirilir. İşğaldan azad olunan digər bölgələrimiz kimi, mənim təmsil etdiyim Füzuli rayonunda da Azərbaycan Prezidentinin rəhbərliyi ilə həyata keçirilən bərpa və quruculuq işləri həm də bizim vətəndaşlarımızın məskunlaşmasına və öz ata-baba yurdlarına qayıtmasına gətirib çıxarır. Məhz ərazi bütövlüyümüzün və suverenliyimizin bərpasından sonra Qarabağ və Şərqi Zəngəzurun bərpasına dövlət büdcəsindən indiyədək 18 milyard manat vəsait ayrılıb. 2025-ci ilin proqnoz göstəricisini nəzərə alsaq, bu, bütövlükdə, 22 milyard manat vəsaitin bu istiqamətə yönəldilməsi anlamına gəlir.

2025-ci ildə Azərbaycan 3 milyon vətəndaşımızı əhatə edəcək yeni sosial paketin icrasına başlayacaq. Bu, 1 milyon 100 min pensiyaçımızın əmək pensiyalarında, minimum əməkhaqqının artması nəticəsində 700 mindən artıq vətəndaşımızın maaşlarında artımlar deməkdir. Bu, Azərbaycanın fiskal gücünün və vətəndaşlarımızın rifah halının daha da yaxşılaşdırılmasının cənab Prezidentin siyasətində...

**Sədrlik edən.** Sağ olun. Sahib Alıyev. Buyurun.

**Sahib Alıyev.** Hörmətli xanım sədr, dəyərli həmkarlar. Dekabrın 25-də Rusiyanın hava məkanında təyyarəmizin vurulması nəticəsində həyatını itirənlər bu gün vətənə gətirilib torpağa tapşırılırlar. Onlara bir daha Allahdan rəhmət, doğmalarına səbr diləyirəm. Baş verən bu olay bizim üçün təkcə faciə deyil, ətrafımızda nələrin cərəyan etdiyini, "böyük" adlandırılan dövlətlərin özlərini necə

apardıqlarını nəzərə alsaq, həm də bir sınaq idi. Bütün dünya görür ki, biz dövlət və millət olaraq bu sınaqdan da şərəflə çıxmaqdayıq.

Prezidentimiz cənab İlham Əliyevin bu haqda xəbər alan kimi Sankt-Peterburqa səfərini dayandırıb geri dönməsi, araşdırma aparmaq üçün təcili olaraq dövlət komissiyası yaradılması, qəza enişi edilən Aktauya iki nazir və mütəxəssislərin yer aldığı heyətin göndərilməsi, tam dəqiqləşdirilmədən hər hansı rəsmi açıqlamanın verilməməsi, kimlərinsə iz azdırmaq cəhdləri kimi bəlli çevrələrin bu olaydan Azərbaycan–Rusiya əlaqələrini korlamağa çalışmalarının da qarşısının alınması Azərbaycan dövlətinin nə dərəcədə dəqiq, soyuqqanlı və məsuliyyətli davrandığını ortaya qoydu. Qeyri-adekvatlığı ilə diqqət çəkən bəzilərinin yardım təklifini rədd edən, təyyarənin vurulması faktının təsdiqlənməsini və buna da uyğun addımlar atılmasını istəyən dövlətimizin özünü böyük sayanlardan nə qədər ucada durması da, uçuş heyətinin yüksək peşəkarlığı və gözyaşardıcı fədakarlığı da daim yaddaşlarda qalacaq. Kaş ki, təyyarəmizi səhv salıb vuranlarda da az da olsa, vurduqları təyyarədəki uçuş heyətinin üzvlərinə bənzərlik olardı.

Bu günlərdə millətimizin, eyni zamanda, başında lider yox, muzdlu blogerin durduğu AXCP ilə Müsavatı çıxmaqla ölkədəki bütün partiyaların sərgilədikləri yüksək həmrəyliyi, mediamızın peşəkar davranışını ayrıca qeyd etməyə bilmirəm. İnsanpərvərliklərinə, qardaşcasına hərəkətlərinə görə qazax xalqına bu yüksək kürsüdən də minnətdarlığımı çatdırıram!

Sonda onu da deyim ki, cənab İlham Əliyevin Sərəncamı ilə 2025-ci ilin “Konstitusiya və Suverenlik

İli” elan olunduğu gün Rusiya Prezidentinin təyyarəmizin vurulması ilə bağlı dövlət başçımıza üzrxahlıq zəngi etməsində, məncə, bir rəmzilik var. Bu, həmin sərəncamdakı “Azərbaycan Respublikası xalqımızın milli maraqlarını rəhbər tutaraq, yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam etdirir, Konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir” cümləsinin heç də gəlişigözəl sözlər olmadığını, reallığı tam əks etdirdiyini təsdiqləmirmi?

Bu, həm də onun təsdiqi deyilmi ki, yeni dünya düzəninin formalaşması yönündə çox mühüm addımların atılacağı 2025-ci ildə Azərbaycan öz Konstitusiyasını və suverenliyini hər şeydən yüksək tutmaqda qərarlıdır. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Tural Gəncəliyev.

**Tural Gəncəliyev**. Hörmətli xanım sədr, hörmətli həmkarlar. 2024-cü ilin sonuna yaxınlaşırıq və ilin yekunlarına nəzər saldıqda ölkəmizin istər xarici, istərsə də daxili siyasətində stabil, dayanıqlı iqtisadi inkişafı və bərpa-quruculuq işlərini bir daha görürük. Bu da çox yüksək inkişafı və gözəl rəqəmləri, vəziyyəti qarşımızda açır. Beləliklə də, biz bütün Azərbaycan xalqı olaraq fəxarət hissi ilə 2024-cü ildə əldə etdiyimiz uğurlara, xüsusi ilə də beynəlxalq münasibətlər istiqamətində əldə etdiyimiz uğurlara sevinirik. Təbii ki, bu uğurlar bir neçə illər öncə başlanmış və davamlı inkişaf etmişdir. Xatırlatmaq istəyirəm, 2014-cü ildə biz ilk dəfə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmişdik. Daha sonra Qoşulmama Hərəkatına çox uğurlu sədrlik, elə bu il ölkəmizdə baş tutan COP29 konfransı ölkəmizin

beynəlxalq nüfuzunun göstəricisidir.

Eyni zamanda, ölkə daxilində aparılan işlər, bərpa-quruculuq işləri, Qarabağda gedən işlər hamımızı sevindirir. Təsadüfi deyildir ki, cənab Prezident tərəfindən 2025-ci il "Konstitusiya və Suverenlik İli" elan edilmişdir. Təbii ki, bu da rəmzi məna daşıyır. Xankəndi şəhərini təmsil edən millət vəkili kimi qeyd etmək istəyirəm ki, dünən, dekabrın 28-də biz artıq Xankəndi şəhərinin işğalı gününü qeyd etmədik. Artıq biz şərəflə Xankəndi şəhərində Azərbaycan Prezidenti tərəfindən dalğalandırılan bayraq altında yaşayırıq və bu gözəl tarixi vaxtda yaşamaq hamımıza bir qürur, bir sevinc verir.

Eyni zamanda, Şuşa sakini kimi bir neçə gün öncə Şuşaya yola salınan növbəti köç karvanı bizim hamımızı sevindirdi. Bilirsiniz, bərpa- quruculuq işləri sürətlə gedir. 2020-ci ildə 44 günlük Vətən müharibəsi başa çatandan bəri Qarabağa 22 milyard manat vəsait yatırılmışdır. Elə 2025-ci il üçün biz büdcədə də bunu təsdiqlədik, bərpa-quruculuq işləri üçün 5 milyard manat əlavə vəsait yatırılacaq. Ümumilikdə, 27 milyard manat. Bu, çox önəmli, çox yüksək rəqəmdir. Beləliklə, tezliklə insanların hamısının öz dədə-baba torpaqlarına geri qayıtması, orada firavan yaşaması üçün artıq heç bir problem yoxdur.

Beləliklə də, 2024-cü ilin yekunlarına bir daha nəzər saldıqda nə qədər uğurlar əldə etdiyimizi və bu uğurların gələn illərdə də, inşallah, davamlı, dayanıqlı olacağını görürük. Bir daha hamınıza təşəkkür edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Ceyhun Məmmədov. Buyurun.

**Ceyhun Məmmədov**. Hörmətli xanım sədr, hörmətli deputatlar. 1993-cü ildə Ulu Öndər Heydər Əliyev siyasi rəhbərliyə qayıdandan sonra müstəqilliyini itirmək,

parçalanmaq təhlükəsindən xilas olan Azərbaycan inkişaf yoluna çıxdı. Ümummilli Liderin siyasi kursunun yeganə düzgün yol olduğunu görən xalqımız 2003-cü il oktyabrın 15-də keçirilən seçkilərdə onun layiqli varisi İlham Əliyevi dəstəkləyərək 76,8 faiz səslə onu özünə yeni prezident seçdi.

Prezident İlham Əliyevin ali dövlət vəzifəsində ilk günlərdən başlayaraq nümayiş etdirdiyi yüksək idarəçilik məharəti, qətiyyətli və milli maraqlara söykənən daxili və xarici siyasəti çox keçmədən öz müsbət nəticələrini verdi. Əsrə bərabər 21 ilin zirvəsində, təbii ki, işğal altındakı torpaqlarımızın azad olunması, ərazi bütövlüyümüzün bərpası ilə nəticələnmiş Vətən müharibəsi dayanır. Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılmış Qarabağ Zəfəri xalqımızın qəhrəmanlıq tarixinə qızıl hərflərlə yazıldı.

Prezident İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan bu gün dünyada bir çox transmilli layihələrin təşəbbüskarı, uğurlu icraçısı, etibarlı tərəfdaş kimi tanınır. Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəməri, Azərbaycan qazını Avropaya çatdıran Cənub Qaz Dəhlizi, TAP layihəsi, Avropanı Asiya ilə birləşdirən Bakı–Tbilisi–Qars dəmir yolu, Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizləri ölkəmizi energetika və nəqliyyat dəhlizinə çevirib.

Son 21 il ərzində Azərbaycan dünyada həm də mühüm beynəlxalq tədbirlərin, yarışların keçirildiyi ölkə kimi tanınıb. Bakı "Eurovision" mahnı müsabiqəsinə, ilk Avropa Oyunlarına, IV İslam Həmrəyliyi Oyunlarına, Formula 1 yarışlarına, futbol üzrə Avropa çempionatının final mərhələsinin bir neçə oyununa, COP29 kimi mötəbər tədbirə ev sahibliyi edib.

Dövlət başçısı tərəfindən aparılan uğurlu siyasətin nəticəsidir ki, bu gün Azərbaycanda mövcud tolerantlıq dinə münasibətdə dövlət siyasəti kimi səciyyələndirilir. Cənab Prezidentin rəhbərliyi ilə böyük tarixə malik məbədlərimizin bərpası sahəsində ardıcıl tədbirlərin həyata keçirilməsi milli-mənəvi dəyərlərimizə olan böyük diqqətin, qayğının təzahürüdür.

Hamımız yaxşı xatırlayırıq ki, Prezident İlham Əliyev ən sevincli günlərini adətən məcburi köçkünlərlə və şəhid ailələri ilə birlikdə keçirir, onlarla qeyd edir.

Bütün bunlar onu deməyə əsas verir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə bu gün Azərbaycan ötən dövrdə əsrə bərabər böyük inkişaf yolu keçib. Qarşıda isə xalqımızı yeni uğurlar gözləyir. Diqqətiniz üçün təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Aydın Mirzəzadə. Buyurun.

**Aydın Mirzəzadə**. Təşəkkür edirəm, xanım sədr. Artıq 2024-cü il tarixə qovuşur. Dönüb arxaya baxdıqda biz 2024-cü ildə Azərbaycan tarixinə yazılacaq çox əhəmiyyətli hadisələrin olduğunu görürük. İki ümummilli seçki keçirildi və bu seçkilərin nəticəsi göstərdi ki, Azərbaycan öz daxili, xarici siyasətini özü müəyyənləşdirir, heç bir xarici dövlətə, heç bir xarici qüvvəyə onun daxili siyasətinin müəyyənləşdirilməsinə müdaxilə etməsinə imkan verməyəcək. Eyni zamanda, prezident seçkilərində cənab Prezidentimizin tariximizdə ən yüksək, 92,12 faiz səs toplaması onun cəmiyyətdəki yüksək nüfuzunu, alternativinin olmadığını, siyasi kursunun cəmiyyət tərəfindən yüksək səviyyədə dəstəkləndiyini göstərdi.

COP29 kimi nəhəng bir beynəlxalq tədbirin Azərbaycanda keçirilməsinin özü də Azərbaycan dövlətçiliyinin

böyük bir uğuru idi. 197 ölkədən 76 min iştirakçının, 80-dən çox dövlət rəhbərinin, ikinci şəxsin iştirakı da Azərbaycana olan böyük diqqətin, Azərbaycana olan hörmətin nəticəsi idi.

Ümumən yekunlaşdırdıqda, Azərbaycanda sosial-iqtisadi sahədə də inkişafın getdiyini görürük. Manat sabitdir, məzənnəsi dəyişmir, inflyasiya birrəqəmlidir və 2024-cü il büdcəsinin hələ tam nəticələnməsə də, yerinə yetirildiyini görürük. Gələn il üçün qəbul etdiyimiz büdcə sosial yönümlüdür və cənab Prezidentimizin bu günlərdə minimum əməkhaqqının, təqaüdlərin artırılması ilə bağlı imzaladığı sərəncam da dövlətimizin sosial məsələləri həmişə diqqətdə saxladığını göstərir.

Məcburi köçkünlərin geri qayıtması proqramı uğurla həyata keçirilir. Artıq 10 minə qədər məcburi köçkün öz dədə-baba torpaqlarına qayıdıb. Bu proses sürətlə davam edir. Qarabağ Universiteti kimi nüfuzlu bir universitet açıldı və onun gələcəkdə ölkəmizin, regionun və dünyanın nüfuzlu universitetlərindən biri olacağını görürük.

Çox təəssüf ki, ilimizin sonu bir neçə gün bundan əvvəl baş vermiş təyyarə qəzası ilə yadda qaldı. Ancaq bununla belə, dövlətimizin, dövlət rəhbərimizin həmin dövrdə atdığı addımlar Azərbaycanın oturuşmuş dövlət olduğunu, qarşısında duran və yaxud da qəflətən qarşısına çıxan istənilən məsələni həll etmək üçün ciddi, prinsipial bir mexanizmə malik olduğunu göstərir. Azərbaycan öz hüquqlarını açıq şəkildə bildirir. Dünən Rusiya Prezidentinin Azərbaycan Prezidentinə zəng edib üzr istəməsi Azərbaycanın nüfuzunu, Azərbaycanın öz hüquqlarını qorumaq qabiliyyətini göstərdi. Eyni zamanda, bu hadisənin özü göstərdi ki, Rusiya Azərbaycan kimi yaxşı mü-

nasibətləri olan bir qonşunu, müttəfiqini itirmək istəmir.

2024-cü ilin uğurlarının 2025-ci ildə davam edəcəyinə inanırıq. Yeni il münasibəti ilə cənab Prezidentimizi və hər kəsi təbrik edirəm.

**Sədrlik edən.** Sağ olun. Elşən Musayev. Buyurun.

**Elşən Musayev.** Təşəkkür edirəm, xanım sədr. Hər kəsi salamlayıram. İlk öncə gündəmin əsas mövzusu, üzləşdiyimiz faciə haqqında danışmaq istəyirəm.

Əlbəttə ki, məlum xəbər hər birimizi dərindən sarsıtdı. Tanrı bu qəzada həyatını itirən bütün bacı və qardaşlarımıza rəhmət eləsin. Yaralılar tezliklə şəfasına qovuşsun və belə ölümlər, belə faciələr bir də olmasın.

Hörmətli həmkarlar, bayaq Sahib müəllim də qeyd etdi, bildiyiniz kimi, bir neçə gün bundan öncə ölkədə fəaliyyət göstərən siyasi partiyalar qəza ilə bağlı bəyanat yaydılar və Azərbaycan xalqına başsağlığı verdilər. Fəqət yenə də 2 partiya ortalıqda yox idi. Üstəlik, yoxluqları bir yana qalsın, əllərindən gələn sürəcdə mövzunu kontekstdən çıxarmağa, faciə üzərindən belə iqtidarı ittiham etməyə, baş vermiş bədbəxt hadisəni siyasi spekulyasiya predmetinə çevirməyə çalışdılar. Desəm ki, təəccübləndim, doğru olmaz. Çünki təəccüblənmədim. Çünki bu adamlardan hər şey gözləmək mümkündür. Çünki AXCP və Müsavat özlərini bizdən hesab etmirlər. Vətən müharibəsində dövlətin və xalqın yanında ola bilməyənlər, Şuşanın və Xankəndinin geri qayıtmasına sevinməyənlər, erməniyə erməninin özündən betər azarkeşlik edənlər milli faciəmizə münasibətdə də başqa cür davranası deyildirlər.

Dəyərli həmkarlar, qarşıdan yeni illə bərabər həm də həmrəylik günü gəlir. Şəxsən mənim anlamımda bu gün bizə lazım olan ən böyük həmrəylik, ələlxüsus Qarabağ

alınandan sonra üzərimizi saran və inkişafımızı heç cür həzm edə bilməyən qara qüvvələrə qarşı nümayiş etdirəcəyimiz həmrəylikdir. Azərbaycanın simvoluna və xilaskarına çevrilən İlham Əliyevin ətrafında hər zamankı kimi, hətta hər zamankından da artıq sərgiləməli olduğumuz həmrəylikdir. Daxildəki xainlərin, xarici piştaxtalarda milli maraqları 5 qəpiyə satmağa hazır olan namərdlərin, satqınların ifşasını tezləşdirəcək həmrəylikdir. Bizi xoşbəxt günümüzdə də, kədərli günümüzdə də bütövləşdirəcək həmrəylikdir.

Tanrı Azərbaycanımızı və ləyaqətli liderimizi qorusun. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Sağ olun. Siyavuş Novruzov. Buyurun.

**Siyavuş Novruzov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar. 2024-cü il Azərbaycan xalqının taleyində həm şərəfli, həm də məsuliyyətli bir il oldu. Burada da qeyd olundu, üç azad, ədalətli, demokratik seçki keçirdik, yəni üçüncü seçki, bələdiyyə seçkiləri də artıq keçirilir. İlk dəfə olaraq Azərbaycanın suverenliyi bərpa edildikdən sonra prezident seçkiləri keçirildi. Cənab Prezident Xankəndidə səs verməsi ilə 200 ildən artıq parçalanmış, ayrı-ayrı hissələrə bölünmüş Azərbaycanın bütövlüyünün, tamlığının bir daha möhürünü vurdu və bununla da Azərbaycanın ərazi bütövlüyünü təmin etdi, onun qarantiyası oldu.

2024-cü ildə ölkəmiz çox böyük tədbirlərə ev sahibliyi edib. Təkcə dövlət səviyyəsində 130 beynəlxalq tədbir keçirilibdir. Ən son tədbir isə COP29 idi ki, bu da dünyanın ən böyük tədbiri, dünyanın böyük diqqət mərkəzində olan bir tədbir idi, Azərbaycan buna ev sahibliyi etdi.

2024-cü il həm də mübarizə ili idi. Azərbaycanın

uğurlarını gözü götürməyən həm xarici qüvvələrin, həm də daxili düşmənlərin Azərbaycana qarşı qarayaxma kampaniyasının, vətən xainlərinin Azərbaycanın faciələri üzərində özlərinin siyasətini qurmalarının və xaricdə oturub adı azərbaycanlı olub erməni çörəyi yeyən və erməni millətinə mənsub olan, onlara nökərçilik edənlərin Azərbaycana qarşı olmazın iftirasının və ayrı-ayrı dövlətlərin Azərbaycana təzyiqinin qarşısının alınması üçün cənab Prezident var qüvvəsi ilə mübarizəsini apardı və son nəticədə də öz qələbəsini çaldı.

Biz bunların hər birini çoxdan tanıyırıq. Bunlar öz siyasətlərini həmişə xalqın faciəsi üzərində qurmağa çalışırlar. Biz bunların 20 Yanvarda, Xocalı soyqırımında siyasətlərini necə faciə qurbanlarının üzərində qurmalarını görmüşük, hakimiyyətə gəlmək üçün Şuşada, Laçında, Kəlbəcərdə fəaliyyətlərini görmüşük. Bunlar üçün hakimiyyətdən başqa arzu yoxdur. Xalqın faciəsi bunları maraqlandırmır. Bunları maraqlandıran ancaq özlərinin məkrli niyyətləridir, məkrli siyasətləridir. Bu cür insanlara qarşı, doğrudan da, biz mübarizəmizi davam etdirməliyik.

Mən 2025-ci ildə cənab Prezidentə, Mehriban xanıma, hörmətli xanım sədr, Sizə, həmkarlarıma, mətbuat nümayəndələrinə, bütövlükdə, xalqımıza uğurlar, müvəffəqiyyətlər arzulayıram. Allah dövlətimizi qorusun. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Zahid Oruc. Buyurun.

**Zahid Oruc.** Uğurla keçən 2024-cü ilin son günlərində məruz qaldığımız təyyarə qəzası dünyada böyük əks-səda doğurdu. Bəli, Prezident İlham Əliyevin uca göylərdə verdiyi dönüş qərarı ilk növbədə Ali Baş Komandan davranışı, 44 günlük müqəddəs müharibədə əmrlərin davamı idi. Azərbaycan Prezidentinin yüksək siyasi iradəsi və

qətiyyəti nəticəsində, nəhayət, Rusiya rəhbərliyinin rəsmən üzr istəməsi təyyarənin vurulmasının Moskva ilə Bakı arasında diplomatik böhrana, siyasi qəzaya çevrilməsinin qarşısını aldı. Əks halda, hər keçən gün müttəfiqliyə zərbə vurur, cinayətkar məsuliyyətsizliyini müdafiə edənlərin mövqeyi qarşıdurma və fitnəkarlıq tərəfdarlarının xeyrinə işləyirdi.

Qlobal medianın manşetinə daşınan tezis – necə olur, böyük dövlət rəhbərləri ilə savaşan Putin Prezident İlham Əliyevin siyasi iradəsi ilə hesablaşır? Bu sualın tək bir cavabı var. Azərbaycanın dövlət başçısı gizli xəyanət planlarında iştirak etmir, mərd və etibarlıdır, qonşulara qarşı qlobal müharibələrdə forpost deyil, xalqımızın mənafeyi naminə güzəştsiz və prinsipialdır.

Son iki əsrdə Azərbaycan–Rusiya münasibətləri heç vaxt indiki qədər bərabərhüquqlu olmayıb. Lakin xalqımız bilməlidir ki, qələbəmizə görə dünənədək bizi cəzalandırmağa qalxanlar indi təyyarə qəzasının arxasında ölkəmizə başsağlığı verənlərin içində gizləniblər. 2020-ci ildə dövlətimizi Qarabağda Rusiya, İran və beynəlmiləl ordularla toqquşdurmağa çalışanlar təyyarə faciəsinə görə yeni qarşıdurma cəbhələri açıblar. Gəlin, soyuqqanlı təhlil edək. Əgər Rusiyanın hava məkanı uçuşlar üçün təhlükəlidirsə, hökumət mütləq müvafiq qərar qəbul edəcək. Lakin Azərbaycan dövləti atdığı addımları xaos yayan sosial şəbəkələrin, xaricdən idarə olunan terror mediasının və işğal partiyasının basqısı ilə deyil, məhz milli mənafelər əsasında atır.

Qəzaya səbəb kimi sərhədin bağlı olmasını göstərənlər, heç olmasa, indi Azərbaycan dövlətinin xalqımızı hansı təhlükələrdən qorumaq üçün antisosial və antihumanist

görünən, lakin məhz milli təhlükəsizliyimizi təmin etmək üçün Rusiya–Ukrayna müharibəsindən qoruyan məcburi qərarını anlayırlarmı? Qəzadan qazanc götürmək istəyənlərin məqsədi Xocalı faciəsindən eyni dərəcədə yararlananlarla oxşardır. Sərnişinlərin kasıb olduğunu qabardıb dövlətin sosial siyasətini linç etməyə qalxanlar həlak olanların birinin mərasiminə qatılıb ailələrinə yardım etməyiblər. Ölənlərin coğrafi mənsubiyyətini istismar edənlər milli, etnik toqquşmaya ümid etməsinlər. Çünki Şəhidlər Xiyabanımız milli birliyimizin müqəddəs simvoludur.

Əgər məndən soruşsaydılar, qəzaya ən böyük səbəb nədir, cinayətkarların cəzalandırılması şərti ilə tərəddüdsüz deyərdim, radiusu hər gün genişlənən və gəlib Şimali Qafqaza çatan Rusiya–Ukrayna müharibəsi. Yoxsa, bütün ölkələrin mütləq bir təyyarəsi vurulmalıdır ki, hamı müharibəni lənətləyib onu durdurmağa çağırsın. Coğrafiyası genişlənən müharibənin dayandırılması üçün BMT-yə çağırış edirik, təyyarələri korluğa məhkum edən lənətə gəlmiş müharibədir.

Millətimizə aydın səma, dövlətimizə qəzasız...

**Sədrlik edən.** Sağ olun. Hörmətli Əli müəllim söz istəyir. Buyurun. Əli Əhmədov.

**Əli Əhmədov.** Çox sağ olun, Sahibə xanım. Hörmətli millət vəkilləri, hörmətli mətbuat nümayəndələri. Mən qısa onu qeyd etmək istəyirəm ki, müəyyən kədərli notlarla da olsa, bütövlüklə, uğurlu olan 2024-cü il başa çatır. Bu, hesab edirəm ki, Azərbaycanın tarixində bizim hər birimizin məmnunluqla qeyd etdiyimiz növbəti uğurlu ildir. İnanırıq ki, 2025-ci il də uğurla başa vurduğumuz 2024-cü ildən heç də az uğurlu olmayacaqdır.

Mənim qeyd etmək istədiyim xüsusi ilə Prezident İlham

Əliyevin 2025-ci ili “Konstitusiya və Suverenlik İli” kimi elan etməsi ilə bağlı verdiyi sərəncamla əlaqədardır. Prezident İlham Əliyevin belə bir sərəncam imzalaması, hesab edirəm ki, kifayət qədər simvolik bir məna daşıyır. Prezident bununla Azərbaycanın Konstitusiyasının və suverenliyinin hər bir Azərbaycan vətəndaşı üçün böyük dəyər olduğunu, eyni zamanda, Azərbaycanda həm Konstitusiyanın, həm də suverenliyin qorunması üçün bu vaxta qədər böyük işlər aparıldığını, bundan sonra da böyük işlər aparılacağında əzmli olduğunu vurğulayıbdır.

Qeyd etmək lazımdır ki, Azərbaycan müəyyən mənada gənc dövlət olsa da, start mərhələsində başlayan bütün digər dövlətlərdən fərqli olaraq bu illər ərzində çox böyük uğurlar qazanıbdır. Mən iki faktı qeyd etmək istəyirəm. Yəqin ki, bu zalda oturanların xeyli hissəsi Azərbaycanın dövlət büdcəsinin cəmi 1 milyard manat olduğunu xatırlayırlar. O qədər də böyük bir vaxt keçmədən, müəyyən qədər qısa vaxt ərzində Azərbaycan 1 milyard manat büdcəsi olan dövlətdən 40 milyard manatdan çox büdcəsi olan dövlətə çevrilib. Güman edirəm ki, bu qədər sürətli bir inkişafa dünyada rast gəlmək çox çətindir. Start mərhələsində başladığımız keçmiş sovet məkanına daxil olan digər ölkələrlə müqayisə etməyə gəlincə, belə bir müqayisəni etmək, sadəcə olaraq, mümkün deyildir.

İkincisi isə, SSRİ dağıldıqdan sonra Azərbaycan bu və ya digər səbəblərlə əlaqədar torpaq itkisinə məruz qalmış ölkələrdən, respublikalardan yeganəsidir ki, öz torpaqlarını geriyə qaytarıbdır və ərazi bütövlüyünü tamamilə bərpa edibdir. Bu ondan xəbər verir ki, Azərbaycanın Prezidenti həm Azərbaycanın inkişafı, iqtisadiyyatının yüksəldilməsi, həm də suverenliyinin qorunması üçün çox

uğurlu və düzgün siyasəti həyata keçirmək iqtidarındadır. Hesab edirəm ki, 2025-ci il bu istiqamətdə çox əlamətdar olacaqdır. Mən bu münasibətlə Prezidentimizi, bütün xalqımızı təbrik etmək istəyirəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Bəhruz Məhərrəmov. Buyurun.

**Bəhruz Məhərrəmov.** Hörmətli sədr, əziz həmkarlar. Möhtərəm Prezident çoxəsrlik dövlətçilik ənənələrimizin təntənəsi, müstəqillik, suverenlik, güc və imkanlarımızın inikası kimi 2025-ci ili ölkədə "Konstitusiya və Suverenlik İli" elan etdi.

Aydındır ki, real suverenlik üçün ilk növbədə hüquqi-siyasi, sosial-iqtisadi bazis formalaşmalıdır. 1969-cu ildə Ulu Öndər Heydər Əliyevin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilməsi ilə ölkənin intibah dövrünə qədəm qoyması belə bazis rolunu oynadı və daha sonra Ulu Öndər Sovet Azərbaycanına Xalq Cümhuriyyətindən də, 1991–1993-cü illərin Azərbaycanından da daha çox müstəqil davranmağa imkan yaratdı.

Lakin, təəssüf ki, hələ də bəzi hallarda yanlış olaraq suverenlik yolunun meydanlardan keçməsi ilə bağlı eyforiya yaranmaqdadır. Baxmayaraq ki, meydanlardan başlanan yol, bir qayda olaraq, ölkələr üzərində əl dəyişikliyinə gətirib çıxarır. Ona görə də suverenlik ilində ictimai fikir ilk növbədə bu absurd düşüncələrdən qurtulmalıdır. Çünki Ulu Öndər Heydər Əliyevin xalqa 2000-ci il 29 dekabr müraciətində də ifadə etdiyi kimi, Azərbaycanın müstəqillik əldə etməsi hansısa ictimai-siyasi qüvvələrin və ya şəxslərin müstəsna xidməti deyil. Əksinə, hakimiyyəti zorla mənimsəməklə xalqa qarşı ən ağır cinayət törətmiş AXC–Müsavat iqtidarı 1991-ci ildə

qəbul edilmiş “Dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktında yeni Konstitusiyanın hazırlanması nəzərdə tutulsa da, nəinki prosesdə maraqlı olmadı, əksinə, bütün potensialını Heydər Əliyevin 18 il ərzində formalaşdırdığı və müstəqillik üçün təməl rolu oynayan potensialı dağıtmağa sərf etdi.

Lakin xalqın tələbi ilə yenidən hakimiyyətə qayıtmış Ulu Öndər ölkədə təhlükəli gedişin qarşısını aldı, müasir dövlət quruculuğu üçün etibarlı zəmin yaratdı, preambulasında Azərbaycanın dövlət müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü başlıca niyyət kimi bəyan edilmiş ilk Konstitusiya qəbul olundu.

Təəssüf ki, 30 il davam etmiş işğal Konstitusiyanın bütün ərazilərimizdə tətbiqinə imkan vermədi. Özünün tarixi hərbi-siyasi zəfərləri ilə cənab İlham Əliyevin ölkəmizin ərazi bütövlüyünü və suverenliyini bərqərar etməsi Konstitusiyanın hüquqi qüvvəsinin bütün ərazilərimizdə, xüsusən möhtərəm Prezidentin cənnətə çevirməkdə olduğu Qarabağ və Şərqi Zəngəzurda bərqərar olunması ilə nəticələndi. Müzəffər liderin yaratdığı bu konfiqurasiya həm də imkan yaratmaqdadır ki, ölkəmiz yeni reallıqlar şəraitində müstəqil siyasətini daha prinsipiallıqla davam etdirsin. Nəticədə Azərbaycan cənab İlham Əliyevin rəhbərliyi altında Konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir və inanırıq ki, 2024-cü ildə müşahidə olunan uğurlar 2025-ci ildə də daha yüksək templə davam edəcək.

Sonda, hörmətli sədr, icazənizlə, bu ali tribunadan qarşıdan gələn Yeni il və Dünya azərbaycanlılarının həmrəyliyi günü münasibəti ilə başda möhtərəm Prezident

və Birinci vitse-prezidentimiz olmaqla xalqımızı, dəyərli Sahibə xanım, başda Siz olmaqla parlamentin bütün heyətini, o cümlədən seçildiyim qəhrəmanlar diyarı Biləsuvarın sakinlərini təbrik edir, daha güclü Azərbaycan naminə Ulu Öndər yolunda hər kəsə uğurlar arzulayıram. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Əli Hüseynli. Əli müəllim, buyurun.

**Əli Hüseynli.** Hörmətli xanım sədr, şərait yaratdığınıza görə çox sağ olun. Bu gün Siz də, hörmətli həmkarlarım da əsasən 2024-cü ilin necə uğurla başa çatdığını və 2025-ci ilin isə cənab Prezident tərəfindən Azərbaycan dövlətçiliyi üçün mühüm bir il olacağı bəyan olunub – onu vurğuladınız.

Hesab edirəm ki, gələn ilin cənab Prezident tərəfindən "Konstitusiya və Suverenlik İli" elan edilməsi təkcə rəmzi məna daşımır, bu, həm də bizim dövlətçiliyimizin tarixinə düzgün, obyektiv baxış ili olacaqdır. Həmkarlarım da burada söylədilər, SSRİ-nin dağılması nəticəsində bütün respublikalar öz müstəqilliklərini bəyan etdilər. Onların bir çoxu həm də suverenliyini bəyan etmişdi. Ulu Öndər Heydər Əliyevin sovet dövründə qurduğu ən yaxşı vəziyyətdə olan Azərbaycan, təəssüf ki, ən pis vəziyyətə düşdü. Hesab edirəm ki, sərəncamın özü Azərbaycanın 1991-ci ildən sonrakı tarixini də tam obyektiv əks etdirir.

"1991–1993-cü illərdə hakimiyyətin yarıtmaz fəaliyyəti" ifadəsi təsadüfi deyil. Çünki 1991-ci ildə Azərbaycan müstəqilliyini bəyan edəndə, təəssüf ki, burada toplaşmış "sexavşik" kommunistlərlə qaragüruh cəbhəçilərin məqsədi müstəqilliyi elan etmək – bu formal mövzu ətrafında Heydər Əliyevə qarşı mübarizə aparmaq

idi. Onların məqsədi bundan ibarət idi. Azərbaycanın da sonrakı bəlaları, həm də torpaqlarının işğalı Heydər Əliyevin hakimiyyətdə olmaması ilə bağlı oldu.

Əlbəttə ki, biz indi suverenliyi, Azərbaycanın ərazi bütövlüyünü ordumuzun, Ali Baş Komandanın rəhbərliyi ilə əldə etdiyimiz qələbə ilə əlaqələndiririk. Təbii ki, həm də onunla bağlıdır. Bu, həm də çox mühüm hərbi uğurdur. Amma suverenlik tək, sadəcə, müharibədəki qələbə deyil idi. Çünki müqayisə etdiyim bir çox ölkələrdə 1990-cı illərin əvvəllərində onlar heç bu problemi yaşamamış-dılar. Postsovet ölkələri arasında ərazi bütövlüyü təmin olunmuş, amma suveren olmayan dövlətləri biz indi görürük. O baxımdan bu sərəncam çox mühüm tarixi bir hadisədir.

Hörmətli Sahibə xanım, Ulu Öndərin 100 illiyi ilə bağlı Sizin rəhbərliyinizlə parlament çox ciddi işlər görmüşdü. Biri də ondan ibarət idi ki, Ulu Öndərin çıxışları dərc olundu. Düşünürəm ki, gələcəkdə biz geniş Azərbaycan ictimaiyyətinə, Azərbaycan mediasına 1991-ci ildə bizim müstəqilliyin bərpa olunması ilə bağlı müzakirələrimizi, buradakı toplantılarda insanların çıxışlarını da təqdim edək. Azərbaycan xalqı həqiqətləri bir daha bilmiş olsun. Bilsinlər ki, müstəqillik uğrunda mübarizə getmirdi, hakimiyyət uğrunda mübarizə gedirdi. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Sadəcə, icazə verin, xatırladım ki, dərc olunmuş o stenoqramlar Ulu Öndərin Milli Məclisin spikeri olduğu müddəti əhatə edir. Çox sağ olun.

Hikmət Məmmədov. Buyurun.

**Hikmət Məmmədov.** Hörmətli xanım sədr, hər şeydən öncə danışmaq üçün şərait yaratdığınıza görə təşəkkür

edirəm. Çünki mən gördüm ki, vaxtımız keçibdir, ancaq Siz danışmaq üçün imkan yaratdınız. Təşəkkür edirəm.

Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, 2025-ci il Azərbaycan Prezidenti tərəfindən “Konstitusiya və Suverenlik İli” elan olundu. Artıq Azərbaycan Prezidentinin təcrübəsində hər ilin xüsusi bir mövzuya həsr olunması ənənə halını alıbdır. Biz bilirik ki, bir il Azərbaycanda “İslam Həmrəyliyi İli” oldu, bir il “Multikulturalizm İli” oldu, bir il “Nəsimi İli” oldu və bu illərdə biz əcdadlarımızdan bizə miras qalan ənənələri öyrənməklə, təbliğ etməklə həm də bu ənənəni yeni nəslə ötürmüş olduq. Biz bir qədər nəsimiləşdik, bir qədər islami baxımdan, din baxımından daha həmrəy olduq, bir qədər daha multikultural olduq və bunun gələcək nəsillərə ötürülməsi üçün il ərzində görülən fəaliyyət proqramı, tədbirlər çox mühüm bir vasitəyə çevrildi.

Bu il isə “Konstitusiya və Suverenlik İli”dir. Əslində, bu, milli dövlətçiliyimizin inkişaf yolunun xatırlanması üçün bir hesabat ilidir, bir dövlətçilik ilidir. Biz bu il 1993-cü ildən Ulu Öndər tərəfindən əsası qoyulan milli dövlətçiliyimizin tarixi Zəfərə necə gəldiyini yenidən öyrənəcəyik. Bir növ özümüzə milli hesabat verib bu ənənəni gənc nəslə ötürəcəyik.

Mənə elə gəlir ki, suverenlik və Konstitusiya məsələsi, sadəcə, daxili siyasətlə məhdudlaşan bir anlayış deyil, həm də xarici siyasətlə bağlıdır. Çünki biz elə son günlərdə baş vermiş hadisə kontekstində milli gücün, siyasi hakimiyyətlə xalqın birliyinin nəyə qadir olduğunu bir daha əyanı şəkildə gördük. Azərbaycan Prezidentinin qətiyyətinin arxasında Azərbaycan xalqının durması, bütün sosial şəbəkələrdə, bütün informasiya resurslarında

hadisə ilə bağlı həmrəyliyin ifadə olunması yeni reallıq yaratdı.

Biz bilirik ki, dünən Rusiya Federasiyasının Prezidenti Azərbaycanın Prezidentinə zəng etdi, üzrxahlıq etdi və düşünürəm, bu, çox yaxşı bir nümunə oldu. Əslində, bu hərəkət Rusiya–Azərbaycan münasibətlərini qırılma nöqtəsinə yaxınlaşmaqdan xilas etdi. Məsələnin mahiyyəti ondan ibarətdir, çox təəssüf, Rusiyada siyasi təfəkkür belədir ki, hələ də ətraf qonşu ölkələrə münasibətdə bir növ velikorus şovinizmi eynəyi ilə baxılır. Azərbaycana münasibətdə isə bəzi siyasi dairələr Rusiya–Azərbaycan münasibətlərinə həm də erməni lobbisi eynəyindən baxırlar. Rusiya Federasiyasının Prezidenti Vladimir Putin bu stereotipi dağıtdı və hamıya mesaj verdi ki, Rusiya–Azərbaycan münasibətləri 2022-ci il fevral ayının 22-də imzalanmış müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında bəyannamənin ruhuna uyğun olmalıdır. Mən düşünürəm ki, burada qeyd olunan fikir, iki müxalifət partiyasının qoşulmamasına baxmayaraq...

**Sədrlik edən.** Hikmət müəllim, fikrinizi bitirin. Buyurun.

**Hikmət Məmmədov**. Çox təşəkkür edirəm, hörmətli xanım sədr. Əlbəttə ki, Azərbaycanın siyasi sistemi də bu proseslərdə Azərbaycan Prezidentinin arxasında oldu. Sadəcə, ənənəvi, öz ampluasında olan, Azərbaycan siyasi sisteminin autsayderi olan o iki partiya bu prosesə qoşulmadı. Mənə elə gəlir ki, bu da Azərbaycan xalqının gözündən yayınmadı, gələcəkdə onlara qarşı öz davranışını xalqımız da müəyyənləşdirəcəkdir. Çox sağ olun, təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Aydın Hüseynov. Buyurun.

**Aydın Hüseynov.** Hörmətli xanım sədr, şərait yaratdığınız üçün mən də Sizə dərin təşəkkürümü bildirirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, media nümayəndələri. Biz bir neçə gündən, artıq 2 gündən sonra 2024-cü ili başa vururuq. 2024-cü il, bütövlükdə, xalqımız üçün çox uğurlu illərdən biri olub. Biz iqtisadi, siyasi, hərbi sahədə çox böyük nailiyyətlər əldə etmişik.

Əgər iqtisadi sahədəki nailiyyətlərimizi ümumi makroiqtisadi göstəricimiz olan ümumdaxili məhsulda ifadə etsək, ümumdaxili məhsulumuz yanvar–noyabr ayları ərzində 4,1 faiz artıb. Nominal həcmdə 113,1 milyard manat təşkil edir. Eləcə də digər kateqoriya olan bizim başlıca iqtisadi strategiyamız və hədəfimiz qeyri-neft sektorunun inkişaf etdirilməsidir və bu sahədə də nailiyyətlərimiz ürəkaçandır. Qeyri-neft-qaz sektorundakı bizim iqtisadi artım tempimiz 6,1 faiz təşkil edir. Dövlət büdcəmizin həcmi, digər nailiyyətlərimiz, – ümumi daxili məhsulu mən qeyd etdim, – valyuta ehtiyatlarımızın artması və sair. Bu nailiyyətlərimizi səciyyələndirərkən biz həmişə nisbi mənada götürürük, yəni ötən illərlə müqayisə edirik. Əlbəttə, bu bizdən ötrü, deyək ki, qürurvericidir.

Bu nailiyyətlərimizin çərçivəsində və fonunda isə bizim daha böyük bir nailiyyətimiz var ki, onu nisbi mənada deyil, biz mütləq mənada qəbul edirik. Bu, ölkəmizdə keçirilən prezident seçkiləri olub. Ölkəmizdə keçirilən prezident seçkiləri, bütün builki nailiyyətlərimiz və hər birimizin çox inamla danışacağımız və böyük mənada ümid bəslədiyimiz gələn illəri səciyyələndirən bu proses məhz Prezident İlham Əliyevin yenidən Prezident

seçilməsi oldu. Xalqın mütləq əksəriyyətinin səsini toplaması ilə Prezident seçilməsi oldu.

Prezident İlham Əliyev ən birinci növbədə Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi siyasətin qarantıdır. İkinci tərəfdən, cənab Prezidentimiz İlham Əliyev 21 il ərzində ölkəyə rəhbərlik edərək Azərbaycan dövlətini dünya dövlətləri sırasına çox yüksək tərzdə çatdırmaqla, qaldırmaqla, eyni zamanda, öz şəxsi keyfiyyətləri fonunda dövlətin bir imicini formalaşdırdı. Bu, qətiyyətdir, bu, xalqını sevməkdir, bu, prinsipiallıqdır, Azərbaycan dövlətinin milli maraqlarının daha böyük ifadəsidir.

Bizim digər nailiyyətimiz dövlətin əsas sütunlarından biri olan parlamentimizin yeni tərkibinin seçilməsi oldu. Parlamentimiz də, mən hesab edirəm ki, öz fəaliyyətini çox yüksək tərzdə qurubdur. Xanım sədr, parlamentimizin də bu nailiyyətlərinin əldə olunmasında Sizə təşəkkürümüzü...

**Sədrlik edən.** Sağ olun.

Asif Əsgərov. Asif müəllim, buyurun.

**Asif Əsgərov.** Hörmətli Sahibə xanım, dəyərli millət vəkilləri, media mənsubları, qonaqlar! Artıq 2024-cü il başa çatmaq üzrədir. 25 dekabrda baş verən faciəli hadisə hər birimizi çox kədərləndirdi. Sərnişin təyyarəsinin faciəli qəzaya uğraması nəticəsində həyatını itirən insanların ailələrinə dərin hüznlə başsağlığı verir, yaralılara isə tezliklə sağalmalarını arzulayıram.

Bununla belə, 2024-cü il ölkəmizin sosial-iqtisadi, siyasi, mədəni həyatında, eləcə də digər sahələrdə böyük uğurlarla müşayiət olunan, Azərbaycan tarixinin səhifələrini zənginləşdirən daha bir uğurlu il kimi yaddaşlarda qalacaq. Yola salmaqda olduğumuz il, belə demək

mümkünsə, bütün parametrlər üzrə ölkəmiz üçün uğurlu oldu. Cari ildə ölkəmiz dinamik inkişaf prosesini davam etdirdi. Azərbaycan son illər ərzində həm bölgədə, həm də dünyada böyük nüfuz qazanmış, sürətli inkişaf edən ölkələr sırasında olduğunu bir daha göstərdi.

2024-cü ili ictimai-siyasi hadisələrlə zənginliyi baxımından da maraqlı saymaq olar. Bu il ölkəmizdə keçirilən prezident seçkilərini demokratiyanın təntənəsi kimi qeyd etmək olar. Azərbaycan xalqı bu seçkilərdə ölkəmizdə görülən işlərə öz yüksək qiymətini verərək İlham Əliyevə etimad göstərdi. Ən mühüm məsələlərdən biri isə prezident seçkilərinin sabitlik şəraitində, ədalətli keçirilməsi idi və xalq yenə də öz taleyini etibarlı əllərə tapşırdı.

Yola saldığımız il 30 illik işğal siyasətinə son qoyduqdan sonra qazandığımız şanlı qələbənin yaratdığı reallıqların təsdiqi istiqamətində atılan qətiyyətli addımlarla davamlı olub. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bərpa-quruculuq işləri həyata keçirilir. Qarabağ Zəfəri ilə regionda yeni reallıq yaradan Azərbaycan dayanıqlılığını, inkişafını daha etibarlı şəkildə təmin etməklə yanaşı, irimiqyaslı qlobal layihələrin mərkəzinə, Cənubi Qafqazın lider dövlətinə çevrilməyə müvəffəq olub.

Ulu Öndər Heydər Əliyevin ideyalarına və həmin ideyalara əsaslanan siyasətə dərin inam həmişə ölkəmizdə qərarlaşmış ictimai məfkurənin ayrılmaz tərkib hissəsi sayılıb və bu baxımdan Azərbaycan cəmiyyətinə təqdim edilən yeni konsepsiyanın Ümummilli Liderin ideyalarına sədaqət ruhunda formalaşması uğur amillərindən biri kimi qəbul edilir.

Sentyabr ayında keçirilən parlament seçkiləri də

ölkənin ictimai-siyasi həyatında mühüm bir hadisə olmaqla xalqımızın bu missiyaya növbəti dəstəyini, eyni zamanda, xalq–dövlət birliyini təcəssüm etdirdi.

Ən çox yadda qalan hadisələrdən biri isə, şübhəsiz, COP29 oldu. Kütləviliyinə, mahiyyətinə görə belə bir möhtəşəm tədbirin paytaxtımızda keçirilməsi, əldə olunan nəticələr ölkəmiz və planetimiz üçün son dərəcə əhəmiyyət kəsb edir.

Bütün bu proseslərin uğurla reallaşmasında Prezident İlham Əliyevlə çiyin-çiyinə çalışan, onun ən yaxın silahdaşı olan Birinci vitse-prezident Mehriban xanım Əliyevanın da böyük xidmətləri var. Bu uğurlar və həyata keçirilən...

**Sədrlik edən.** Mikrofon verin.

**Asif Əsgərov.** Təşəkkür edirəm, xanım sədr. Bu uğurlar və həyata keçirilən işlər göstərir ki, Azərbaycanın çox parlaq gələcəyi var. Odur ki, 2025-ci ildə biz daha möhtəşəm yeniliklərin və yüksəlişlərin şahidi olacağıq.

Mən xalqımızın müdrik liderinə, möhtərəm Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya qarşıdan gələn Dünya azərbaycanlılarının həmrəyliyi günü və Yeni il münasibəti ilə səmimi təbriklərimi çatdırmaq istəyirəm və onlara gələcək ali dövləti fəaliyyətlərində və irəli sürdükləri bütün təşəbbüslərdə uğurlar arzulayıram.

Eyni zamanda, xalqımızı, hörmətli Sahibə xanım, Sizi və həmkarlarımı qarşıdan gələn Dünya azərbaycanlılarının həmrəyliyi günü və Yeni il münasibəti ilə ürəkdən təbrik edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Səyyad Salahlı.

**Səyyad Salahlı**. Təşəkkür edirəm, xanım sədr. Təbii, 2024-cü il haqqında hələ biz çox danışacağıq. Ona görə ki, bu il Azərbaycan dövləti və milləti üçün çox uğurlu bir il oldu. Amma mənə elə gəlir ki, 2025-ci il tufan qabağı sakitliyi andırır. Tramp ya zarafata, ya da həqiqətən, ciddiyə uyğun olaraq deyir ki, Kanada 51-ci ştatım olmalıdır. Panama kanalı haqqında qəribə fikirlər söyləyir. Başqa bir dövlət haqqında da tamam heç bir siyasi etikaya sığmayan ifadələr işlədir. Mən düşünürəm ki, əgər bunu başqa bir dövlət desəydi, bu, açıq-aşkar işğal faktı kimi dəyərləndirilərdi. Amma dünyanın simasızlığına baxın ki, o boyda prezident belə sözlər danışır, heç bir reaksiya olmur.

Sonra Netanyahu deyir ki, axırıncı HƏMAS-çı qalana qədər müharibə gedəcək, o biri tərəf deyir, sakitlik olan kimi Colan təpələrindən çıxmalıdır. Amma o biri dövlət də, yenə Baş nazir deyir ki, o bizim həyati zonamızdır, biz oradan çıxmayacağıq. Rusiya–Ukrayna müharibəsi, Yaxın Şərqdəki vəziyyət, 2025-ci il çox gərginlikləri ilə gəlir. Yəqin ki, yeni dövlətlər yaranacaq, hansı isə dövlətlər parçalanacaq. BMT-nin tribunasında Pezeşkian əlini silkələdi ki, "siz belə davam etsəniz, 4 yerə bölünmüş İran görəcəksiniz".

Mən düşünürəm ki, biz indi əvvəlkindən daha artıq milli birliyə və milli həmrəyliyə nail olmalıyıq. İçimizdəki vətən düşmənlərini, hansı isə 5-ci kolon üzvlərini qətiyyətlə dəf etməliyik. O gün "Media Türk"də eşidirəm, Fidan adlı birisi Ermənistana, erməni tərəfə zəng edib deyir ki, "niyə atəş açmırsınız, niyə gəlmirsiniz, harada qalmısınız?". Bu, nə cür Azərbaycan vətəndaşıdır? Ölkənin uyğun strukturları bu adamları qətiyyətlə dəf

etməlidir və bunlara yerini bildirməlidir.

Möhtərəm Prezident çox fədakar siyasəti ilə Azərbaycan gəmisini fırtınalardan, tufanlardan, aysberqlərdən uğurla sülh və səadət sahilinə çıxarır. Bizim də borcumuz bu böyük fəaliyyətdə ona dəstək olmaqdır. Millətin hər bir üzvü tam möhkəm şəkildə bir-birinə sarılmalı, ölkəyə qarşı yönələn bu cür iftiraları və hərəkətləri qətiyyətlə dəf etməlidir. Mən hamımıza birlik arzulayıram və millətin hamısını və deputat həmkarlarımı da yeni il münasibəti ilə təbrik edirəm.

**Sədrlik edən.** Göydəniz Qəhrəmanov. Buyurun.

**Göydəniz Qəhrəmanov**. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, media nümayəndələri. İlk öncə Azərbaycan Hava Yollarının təyyarəsinin qəzaya uğraması nəticəsində həlak olan qəhrəman pilotlarımıza, təyyarə bələdçisinə və qəza nəticəsində həlak olanlara Allahdan rəhmət, yaralılara şəfa diləyirəm. Xüsusi olaraq vurğulamaq istəyirəm ki, məhz cənab Prezident İlham Əliyevin nümayiş etdirdiyi qətiyyət və əzmkarlıq nəticəsində Rusiya dövləti üzrxahlığını ifadə etdi. Qəzanın ilk günlərindən baş vermiş hadisə ilə bağlı cənab Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva dərhal reaksiya verdilər. Cənab Prezident səfərini təxirə salaraq xalqının yanında olmaq naminə təcili vətənə döndü, operativ müşavirə keçirərək qəzanın hərtərəfli araşdırılması üçün lazımi tapşırıqlar verdi.

Dəyərli həmkarlar, çıxışımda 2024-cü ildə dövlətimiz tərəfindən görülən işlər haqqında danışmaq istərdim. Bu il ilk dəfə tam suveren Azərbaycan Respublikası ərazisində keçirilən prezident və parlament seçkiləri ilə yadda qaldı. Bu seçkilər xalqımızın dövlət siyasətinə olan böyük

etimadının açıq nümunəsidir və bir daha göstərir ki, xalqımız daim ölkə rəhbərinin siyasətini dəstəkləyir və onun yanındadır. COP29 kimi beynəlxalq səviyyəli tədbirə ev sahibliyi etməyimiz, şübhəsiz ki, cənab Prezidentin apardığı uğurlu siyasətin və rasional diplomatiyasının nəticəsidir.

İlin sonunda sosial-iqtisadi sahədə dövlət siyasətinin məntiqi yekunu kimi cənab Prezidentin sərəncamı ilə 2025-ci ildə minimum əməkhaqqı və təqaüdlərin növbəti dəfə artmasını göstərə bilərik. Ötən illərdə olduğu kimi, bu il də cənab Prezidentin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərdə dirçəliş işləri davam etdirildi. İqtisadi inkişaf tempimiz də artmaqdadır və proqnozlara əsasən 2025-ci ildə daha yaxşı nəticələr gözlənilir.

Əminəm ki, yüksək dinamika ilə görülən bütün işlər 2025-ci ildə də uğurla davam etdiriləcək. Hər birinizi qarşıdan gələn Yeni il və Dünya azərbaycanlılarının həmrəyliyi günü münasibəti ilə səmimi qəlbdən təbrik edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Vüqar Rəhimzadə. Buyurun.

**Vüqar Rəhimzadə**. Təşəkkür edirəm, xanım sədr. Mən də minnətdaram ki, hər bir deputata belə şərait yarandı və artıq başa çatmaqda olan ilin son iclasında ölkə həyatı üçün əlamətdar hadisələrlə bağlı kifayət qədər geniş fikir mübadiləsi aparıldı, fikirlər bildirildi. Mən də hesab edirəm ki, 2024-cü il Azərbaycanın tarixində, Azərbaycanın taleyində çox əlamətdar, çox yadda qalan il kimi xarakterizə olunacaqdır. Bu il, doğrudan da, hər bir fərdin, hər bir vətəndaşın həyatında və təbii ki, dövlətimizin həyatında müstəsna hadisələrlə yadda qaldı.

Bu il ən böyük, başlıca şərtlərdən biri Böyük Qayıdış

proqramı çərçivəsində keçmiş məcburi köçkünlərimizin öz dədə-baba torpaqlarına qayıtması prosesi uğurla reallaşmaqdadır və ərazilərimiz işğaldan azad olunandan sonra şəhərlərimiz, qəsəbələrimiz müasir şəkildə qurulmaqdadır. Düşünürəm ki, dövlətin ən başlıca hədəflərindən birincisi məhz Böyük Qayıdış proqramı çərçivəsində məcburi köçkünlərimizin, qaçqınlarımızın öz dədə-baba torpaqlarına qayıdışının təminatında apardığı işlərdir.

Əziz dostlar, əziz həmkarlarımız, burada qeyd olundu, doğrudan da, bu il Azərbaycanın bütün suveren ərazilərində həm prezident seçkilərinin reallaşdırılması, həm də parlament seçkilərinin keçirilməsi Azərbaycan tarixində ən yadda qalan və belə deyək ki, Azərbaycan tarixinə əbədi həkk olunan anlardan biridir. Doğrudan da, uzun illər, müstəqilliyin bərpasından sonrakı illərdə bu, mümkün olmamışdır və işğaldan azad olunan torpaqlarımızın hər bir kəndində, qəsəbəsində, hər bir şəhərində bu seçkilər artıq yüksək səviyyədə reallaşdırıldı.

Növbəti il – "Konstitusiya və Suverenlik İli" müstəqil ölkə kimi Konstitusiyamızın qəbulunun 30 illiyidir və bu baxımdan suverenliyin bərpasının növbəti ilidir və düşünürəm ki, kifayət qədər zəngin, çox böyük tarixi hadisələrlə yadda qalacaq.

2024-cü ildə, ümumiyyətlə, Azərbaycanın iqtisadi həyatında kifayət qədər uğurlara imza atıldı. Azərbaycanın sosial və siyasi həyatında kifayət qədər mühüm layihələr icra olundu. 2024-cü il, düşünürəm ki, ən yadda qalan uğurlu illərdən biri kimi artıq tarixə çevrilməkdədir və bu il təməl prinsipləri müəyyən olunmuş o işlər 2025-ci ildə daha böyük layihələrin reallaşmasında müstəsna rola,

müstəsna əhəmiyyətə malik olacaqdır.

Burada qeyd olundu, ən böyüyü COP29 tədbirinin keçirilməsidir. Mən düşünürəm, 100 illik dövlətçilik təcrübəsi olan ölkələr var ki, bəlkə də xəyal kimi, arzu kimi belə tədbirlərə ev sahibliyi edilməsinə baxırlar, amma Azərbaycan müstəqilliyin bərpasından sonra həm iqtisadi gücünə görə, həm ev sahibliyi etdiyi belə möhtəşəm tədbirlərlə dünyanın diqqət mərkəzində olan ölkələrdən birinə çevrilib...

**Sədrlik edən.** Mikrofon verin.

**Vüqar Rəhimzadə**. Bu, təbii ki, möhtərəm cənab Prezidentimiz, müzəffər Ali Baş Komandanımız İlham Əliyevin bütün sahələrdə həyata keçirdiyi uğurlu siyasətin məntiqi nəticəsidir. Mən də möhtərəm cənab Prezidentimiz, Mehriban xanım başda olmaqla bütün Azərbaycan xalqını qarşıdan gələn 31 dekabr – Dünya azərbaycanlılarının həmrəyliyi günü və eyni zamanda, yeni təqvim ili münasibəti ilə ürəkdən təbrik edirəm. Çox hörmətli xanım sədr, Sizi və parlamentdə əyləşən bütün həmkarlarımı, hər bir insanı ürəkdən təbrik edirəm. Bizim də başlıca vətəndaşlıq missiyamız bundan ibarətdir ki, qarşıda duran hədəflərə yüksək səviyyədə nail olmaq üçün bir vətəndaşlıq mövqeyi ifadə edək və Azərbaycanın dünyanın ən inkişaf etmiş ölkələrindən birinə çevrilməsində öz töhfələrimizi verək.  Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Vüqar müəllim.

Tənzilə Rüstəmxanlı. Tənzilə xanım, buyurun.

**Tənzilə Rüstəmxanlı.** Hörmətli həmkarlarım və xanım sədr. Burada çıxış üçün şərait yaratdığınıza görə təşəkkür edirəm.

Əlbəttə, 2024-cü ildə Azərbaycan xalqının, dövlətimi-

zin taleyində çox önəmli hadisələrə şahid olduq. Ən əsas hadisələrimizdən biri də prezident seçkiləri və Milli Məclisə seçkilər idi, o cümlədən də Azərbaycanın çox önəmli COP29-a ev sahibliyi edərək onu çox ləyaqətlə başa vurması idi.

Bu böyük hadisələrin fonunda həm də biz yaşadığımız ayın içində çox ağır bir faciə ilə üz-üzə qaldıq. Yəni bir fəlakət, bir qəza yaşandı, təyyarə qəzası. Əlbəttə, məni ən çox sevindirən hadisələrdən biri o idi ki, Azərbaycan xalqı özünü çox ləyaqətlə apardı, hər bir qurum özünü ləyaqətlə apardı. Azərbaycan xalqının ləyaqəti və dövlət ağlı qalib gəldi. O cümlədən də ayın 27-də keçirilən Məclisdə dövlət ağlını mən burada da hiss etdim və bundan dolayı, Sahibə xanım, Sizə təşəkkür edirəm ki, o mövzuya toxunmağa imkan vermədiniz. Düz etdiniz. Çünki hər kəs çox həyəcanlı idi, müxtəlif fikirlər söylənə bilərdi. Bəlkə də dövlətimiz bu cür qürurla, ləyaqətlə o hadisələrdən çıxmazdı. Azərbaycan dövləti əxlaqın və dövlət ağlının nə olduğunu bu duruşu ilə göstərdi.

Mən istəyirəm, həm də xalqımızı qarşıdan gələn 31 dekabr – Dünya azərbaycanlılarının həmrəyliyi günü münasibəti ilə təbrik edim. Bu günün əsasında duran 1989-cu ildə Naxçıvanda Araz çayının üzərindən xalqımızı ikiyə bölən o tikanlı məftillərin sökülməsi və o hərəkatla başlayan Azərbaycanın müstəqillik hərəkatı idi. Əgər o müstəqillik hərəkatı olmasaydı, Azərbaycan müstəqillik gününü qeyd edə bilməzdi və müstəqilliyini qazana bilməzdi. Mən Vətəndaş Həmrəyliyi Partiyasının, ən çox vətəndaş həmrəyliyinə çalışan bir partiyanın nümayəndəsi kimi buradan xalqımızı təbrik edirəm. Bu günləri bizə yaşadanların, həyatda olmayanların...

**Sədrlik edən.** Çox sağ olun, Tənzilə xanım.
Sonuncu çıxış. Gülşən Paşayeva. Buyurun.

**Gülşən Paşayeva.** Təşəkkür edirəm, xanım sədr. Hörmətli sədarət, hörmətli millət vəkilləri, media mənsubları. Mənə elə gəlir ki, bu gün bu ilin son parlament müzakirələridir, plenar iclasıdır. Eyni zamanda, parlamentin payız sessiyası başa çatmaqdadır. Biz bir neçə gündən sonra 2025-ci ili qarşılayacağıq. Əlbəttə, bütün çıxış edən deputatlar kimi, mən də həm dövlətimiz, həm də xalqımız tərəfindən bu ildə əldə edilmiş bir sıra böyük nəticələri qısa olaraq qeyd etmək istərdim. İlk növbədə xarici siyasət baxımından. Çünki hamınız gözəl bilirsiniz ki, Azərbaycan dövlətinin 30 ildən çox müddət ərzində həyata keçirdiyi siyasət olduqca məqsədyönlü və dəqiq bir siyasət idi və buna görə də, əlbəttə, cənab Prezidentin bu istiqamətdə apardığı siyasəti biz, doğrudan da, yüksək qiymətləndiririk.

İlk növbədə əgər yadınızdadırsa, son bir neçə il ərzində Azərbaycanın Qoşulmama Hərəkatı çərçivəsində həyata keçirdiyi sədrlik və bu il də o, "Troyka" çərçivəsində Uqanda və Özbəkistanla birlikdə davam etdirilmişdir. Eyni zamanda, bu il biz GUAM-da da sədrliyimizi davam etdirmişik. Bu il biz daha bir yeni təşkilat olan Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirədə – AQEM-də 2024–2026-cı illərdə artıq öz fəaliyyətimizi sədr kimi başlayacağıq. Eyni zamanda, qeyd etmək istərdim ki, Türk Dövlətləri Təşkilatı çərçivəsində də Azərbaycan çox fəal fəaliyyət həyata keçirmişdir. Bu il Şuşada bu təşkilatın qeyri-rəsmi konfransı keçirilmişdir. Biz 2025-ci ildə bu təşkilatın 12-ci zirvə görüşünü məhz

Azərbaycanda keçirəcəyik.

Bu il Azərbaycan, eyni zamanda, İqtisadi Əməkdaşlıq Təşkilatının da üzvü olmuşdur. Bu da, mənə elə gəlir, bizim apardığımız xarici siyasətin gözəl bir yekunudur.

Əlbəttə, bütün bu istiqamətlərdə aparılan xarici siyasət və eyni zamanda, ölkə daxilində aparılmış daxili siyasət göstərir ki, 2025-ci il də xalqımız və ölkəmiz üçün çox dəyərli, xeyirli olacaq. Eyni zamanda, parlamentin də, mən inanıram ki, gələn il 30 illik yubileyi, yəqin, təşkil ediləcək. Çünki yadınızdadırsa, 1995-ci ildə öz fəaliyyətinə başlayan parlament məhz 2025-ci ildə bu vacib yubiley tədbirini də, yəqin ki, həyata keçirəcək.

Ona görə bu böyük fəaliyyətdə mən bütün parlament üzvlərinə, başda Sahibə xanım, Siz olmaqla bütün istiqamətlərdə aparılan fəaliyyətdə böyük uğurlar arzulayıram. Eyni zamanda, xalqımızı, millətimizi qarşıdan gələn 31 dekabr – Dünya azərbaycanlılarının həmrəyliyi günü və Yeni il münasibəti ilə təbrik edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Gülşən xanım. Hörmətli həmkarlar, bütün çıxış etmək istəyənlər hamısı çıxış etdi. Mən hamıya bu imkanı yaratdım. 20 nəfər çıxış etdi. Düşünürəm ki, hər bir çıxışda möhtərəm cənab Prezidentin apardığı həm daxili, həm də xarici siyasətə qiymət verildi, biz gələcəyə də bir nəzər saldıq. Bütün bu çıxışların nəticəsi olaraq hiss olunur ki, parlament, həmişə olduğu kimi, öz işini, öz funksiyasını, öz missiyasını gələn il də yüksək səviyyədə aparacaq. Çox sağ olun.

Hörmətli həmkarlar, biz indi gündəliyin məsələlərinə keçirik. Bu gün bizim gündəliyimizdə 10 məsələmiz var. 1-ci məsələ Azərbaycan Respublikasının Milli Məclisi yanında Toponimiya komissiyasının tərkibi haqqında

qərar layihəsidir. Qeyd edim ki, komissiyanın üzvlüyünə namizəd olan deputatlar və digər 3 namizəd də buradadırlar. Mən onlarla sizi tanış etmək istəyirəm. Professor Mahirə xanım Hüseynova – Azərbaycan Dövlət Pedaqoji Universitetinin prorektoru, filologiya elmləri doktoru, dediyim kimi professor, Elçin müəllim İsmayılov – Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun Toponimika şöbəsinin müdiri, Sabir Rüstəmxanlı – bizim hamımızın yaxşı tanış olduğumuz Sabir müəllim, bizim xalq şairimiz və Cavid İskəndərov – Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin İnzibati ərazi və bələdiyyə məsələləri üzrə qanunvericilik sektorunun müdiri. Mən qonaqlarımızı bir daha salamlayıram.

Hörmətli həmkarlar, məsələyə dair məlumat vermək üçün Regional məsələlər komitəsinin sədri hörmətli Siyavuş Novruzova söz verirəm. Siyavuş müəllim, buyurun, məsələ ilə bağlı məlumat verin.

**Siyavuş Novruzov,** *Milli Məclisin Regional məsələlər komitəsinin sədri.*

Hörmətli xanım sədr, hörmətli deputatlar. Bildiyiniz kimi, Azərbaycan Respublikası Milli Məclisinin 2000-ci il 28 aprel tarixli 870 nömrəli Qərarı ilə Azərbaycan Respublikasının Milli Məclisi yanında Toponimiya komissiyası yaradılmışdır. Azərbaycan Respublikasının Milli Məclisi yanında Toponimiya komissiyası Azərbaycan Respublikasının ərazi vahidlərinə adların verilməsi, onların dəyişdirilməsi məsələlərinin müzakirə edilməsi və bu barədə Azərbaycan Respublikasının Milli Məclisinə rəy hazırlanması məqsədi ilə yaradılmışdır. Toponimiya komissiyası Azərbaycanda yer adlarını dəyişən zaman

yeni adların Azərbaycan dilinin normalarına uyğun olmasını təmin edir.

Məlumdur ki, bu gün Azərbaycan dünyada etibarlı tərəfdaş, güclü, qüdrətli, qalib dövlət və Cənubi Qafqaz regionunun lider ölkəsi kimi tanınır. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl və məqsədyönlü islahatlar ölkəmizin sosial-iqtisadi inkişafını sürətləndirir, qarşıya qoyulan strateji hədəflərə çatmağa imkan verir.

Müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusunun şücaəti və misilsiz qəhrəmanlığı sayəsində 44 günlük Vətən müharibəsi zamanı torpaqlarımız işğaldan azad edildi, ölkəmizin ərazi bütövlüyü və tarixi ədalət bərpa olundu.

Erməni vandallarının xalqımıza qarşı həyata keçirdiyi soyqırımı siyasəti təkcə insanlar deyil, həm də tarixi, mədəni abidələr və coğrafi adlarımız üzərində də aparılıb. Onlar işğal etdikləri kəndlərimizin və digər yaşayış məskənlərimizin adlarını dəyişdirərək özününküləşdirməyə çalışıblar. İşğaldan azad olunan kəndlərimizin bəzilərinin adında da bu nümunəni görmək mümkün idi. Ümumiyyətlə, bu vəhşiliklər ermənilərin uzun müddət ərzində xalqımıza məxsus tarixi, dini, mədəni abidələrə qarşı soyqırımı aktının davamıdır. Azərbaycanın işğal olunmuş ərazilərində yerləşən maddi mədəniyyət nümunələrini, o cümlədən tarixi, dini abidələri məhv etmək Ermənistanın təcavüzkar siyasətinin tərkib hissəsidir. İki əsrdən artıqdır ki, Azərbaycan xalqına qarşı davam edən erməni təcavüzünün qurbanları həm də tarixi, dini və mədəni abidələrimiz olmuşdur.

Azərbaycanın işğal edilmiş ərazilərində tarixi, dini

abidələrin sayı ümumən 403-dür. Onlardan 67-si məscid, 144-ü məbəd, 192-si isə ziyarətgahlardır. Qəbiristanlıqların sayı isə 900-dən artıqdır. Təbii ki, təcavüzkar dövlətin bu cür vandal əməllərə əl atmaqda əsas məqsədi bizim minilliklər ərzində yaşadığımız torpaqlarda həm tarixi keçmişimizi, həm də mənəvi yaddaşımızı məhv etməkdir.

Qeyd edim ki, işğalçı Ermənistanın tarixi, dini abidələrimizə vurduğu ziyan davam etməkdədir. Döyüş meydanında uğursuzluğa məruz qalan erməni silahlı birləşmələri mülki yaşayış yerlərinə, o cümlədən tarixi abidələrə, qəbiristanlıqlara, ziyarət yerlərinə atəş açıblar. Gəncə şəhərinə, Bərdə, Goranboy, Ağcabədi, Tərtər, Ağdam, Füzuli, Beyləqan rayonlarına raket və top atışları nəticəsində bir sıra tarixi, dini abidələrə də xeyli zərər yetirilmişdir.

Bunlarla yanaşı, Ermənistan yerli adları, toponimləri dəyişdirməklə çoxsaylı cinayətlərə yol vermişdir. Şübhəsiz ki, işğaldan azad olunmuş bütün ərazilərimizdə tarixi, milli adlarımız bərpa ediləcək. Bunun mühüm siyasi, hüquqi və mənəvi əhəmiyyəti, təbii, coğrafi əsasları mövcuddur.

Müharibənin gedişi prosesində cənab Prezident İlham Əliyev erməniləşdirilmiş Vəng kəndinə Çinarlı adını, Madagezə Suqovuşan adını, Quşçubaba kəndinə Baharlı adını, Tsakuri kimi mənası bilinməyən kəndin adını dəyişib Hünərli adını verməklə müzəffər ordumuza, əsgərlərimizə böyük nikbinlik gətirdi. Bu da qələbəyə aparan yolda Ali Baş Komandanın düşündüyü, mənəvi-psixoloji cəhətdən ordumuzu qürurlandırmaq, dəstək vermək, onu qələbəyə doğru ruhlandırmaq kimi ali məq-

səd daşıyırdı.

Eyni zamanda, qeyd etmək lazımdır ki, Qərbi Azərbaycan tariximizin unudulmaz bir parçasıdır. Qərbi Azərbaycan torpağı Azərbaycan elminə görkəmli şəxslər, ictimai xadimlər, elm, mədəniyyət, ədəbiyyat və incəsənət aləmində öz sözü olan şəxslər bəxş edib. Tarixdə saxtakarlıq və sünilik sahəsində birinci olan ermənilər 200 ilə yaxındır Qərbi Azərbaycanda bizim tariximizi saxtalaşdırmaqla, türk mənşəli toponimləri dəyişdirib erməniləşdirməklə məşğul olublar. Daşnak ermənilərin planında türklərə aid torpaqları ələ keçirmək, onları öz yurdlarından qovmaq əsas məsələ olub. Ermənilər bu işə əvvəlcə mənəvi təxribatdan başlayıblar. Yer-yurd adlarımızın, toponimlərimizin adlarının erməniləşdirilməsi bu məkrli siyasətin tərkib hissəsidir. Ermənilər indiyə qədər minlərcə türk mənşəli toponimin dəyişdirilməsini həyata keçirib. Onlar kənd, rayon adlarını erməniləşdirməklə işlərini bitmiş hesab etmir, dağ, meşə, bulaq və sair adlarını da saxtalaşdırırlar.

Həmçinin hələ sovet dövründə Azərbaycanda ərazilərin adları o dövrün siyasətinə uyğun verilmişdir. Onların dəyişdirilməsi istiqamətində də həm Azərbaycan Respublikasının Milli Məclisi yanında Toponimiya komissiyasının üzvləri, həm də Azərbaycan Milli Elmlər Akademiyasının professorları hər zaman müvafiq işlər görürlər. Yeri gəlmişkən, bir məsələni də qeyd etməliyəm ki, istər keçmiş sovet dövründə, istərsə də müstəqillik illərində Azərbaycan toponimlərinin, tarixi keçmişinin araşdırılmasına böyük əmək sərf edən dəyərli alimlərimiz olub.

Qeyd etmək istəyirəm ki, toponimiya tədqiqatları,

arxeoloji və etnoqrafik araşdırmalar, hüquqi qiymətləndirmələr Toponimiya komissiyasının diqqət mərkəzindədir və bundan sonra da həmin məsələlərlə məşğul olmağı komissiya prioritet istiqamət hesab edəcək.

Bu məsələ Milli Məclisin Regional məsələlər komitəsinin iclasında müzakirə edilmiş və işləri məqsədyönlü aparmaq üçün Azərbaycan Respublikasının Milli Məclisi yanında Toponimiya komissiyasının tərkibinin yenidən formalaşması zəruri hesab edilmişdir.

Toponimiya komissiyasına, hörmətli sədr, Siz qeyd etdiniz, 12 nəfər daxildir. Həm bizim Milli Elmlər Akademiyasından akademiklərimiz, alimlərimiz, bu sahədə olan mütəxəssislərimiz, həm də Milli Məclisdə bu sahə ilə məşğul olan komitə sədrlərimiz, tarix və digər sahələrdə kitabları, monoqrafiyaları olan alimlərimiz, həmçinin Aparatın əməkdaşları cəlb olunublar. Ona görə də həmkarlarımdan bu komissiyanın yeni tərkibinə səs vermələrini xahiş edirəm. Hesab edirəm ki, komissiya çox məhsuldar bir komissiyadır və gələcəkdə də qarşıya qoyulan bütün məqsədlərə nail olacaqdır. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Siyavuş müəllim, ətraflı məlumat verdiniz. Sadəcə, onu da vurğulayım ki, komissiyanın üzvlüyünə namizədlər arasında, mən dediyim kimi, bizim həmkarımız, Aparatın işçisi Cavid İskəndərov da var. Komissiyanın üzvləri arasında həmişə Aparatdan bir nəfər olur. Sonra isə, bildiyiniz kimi, komissiyanın iclasında sədr, katib seçilir və sair.

Hörmətli həmkarlar, nə fikriniz var?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Səsə qoymaq. Razıyam sizinlə. Gəlin, qərar layihəsinə səs verək. Mən səsə qoyuram. Buyurun.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.20 dəq.) |
| Lehinə | 115 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 115 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, Milli Məclisin Qərarı qəbul edildi. Komissiyanın üzvlərini təbrik edirik və onlara uğurlar arzulayırıq. İndi isə hamınızı hörmətlə yola salırıq, uğurlar arzulayırıq. Sağ olun.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Kiminsə sözü var? Sabir müəllim, sözünüz var? Buyurun.

**Sabir Rüstəmxanlı,** *Xalq şairi, Milli Məclis yanında Toponimiya komissiyasının üzvü.*

Təşəkkür edirəm, hörmətli Sahibə xanım. Toponimiya komissiyasının sıralarına bizim daxil edilməyimiz, şübhəsiz, Milli Məclisin rəhbərliyinin münasibətidir. Buna görə bir daha təşəkkür edirəm. Çox sağ olun.

Toponimiya məsələsi, burada artıq Siyavuş bəy qeyd etdi, çox ciddi məsələdir və burada ənənəni, tarixiliyi, milli mövqeyi, ümumi stabilliyi qorumaq üçün çox iş görmək lazımdır. Bizim torpaqlarımız işğal olunduğu kimi, təəssüf ki, adlarımızda, toponimikamızda da buna bənzər çox böyük proseslər olub, davam edir, bunun qarşısı alınmalıdır. Millətin milli, dövlət atributları kimi, xalqın adı, soyadı kimi, gərək onun yer adlarında da, toponimikasında da bir qayda olsun. Burada hökmən ciddi

bir proses getməlidir. Təbii ki, biz də bacardığımızı edəcəyik.

Yeri gəlmişkən, burada Milli Məclisin deputatları çox ciddi məsələlərə toxundular. İlin sonunda ağır bir faciə yaşasaq da, həyat davam edir. Azərbaycan son 35 ildə buna bənzər çox matəmləri adlayıb, amma dayanmayıb, həmişə irəli gedib. Şübhəsiz, bundan sonra da gedəcək. Bunu nəzərə almaqla, mən 31 dekabr – Dünya azərbaycanlılarının həmrəyliyi günü münasibəti ilə dünyanın bütün qitələrində yaşayan soydaşlarımızı buradan təbrik etmək istəyirəm. Hansı ölkədə yaşasalar da, onlar daim Azərbaycanın yanındadırlar. Mən Dünya Azərbaycanlıları Konqresinin həmsədri kimi bütün qitələrdə onlarla görüşmüşəm. Onların fikri buradadır. Bir dövlətləri var və onun inkişafında, böyüməsində, güclənməsində həmişə maraqlıdırlar, buna çalışırlar.

Biz də buradan onları salamlayırıq, onları təbrik edirik. Eyni zamanda, burada mən dövlətimizin başçısı – Prezident başda olmaqla bütün millətimizi həm Dünya azərbaycanlılarının həmrəyliyi günü, həm də Yeni il münasibəti ilə təbrik etmək istəyirəm. 2025-ci il millətimizə xeyirli, uğurlu olsun. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Sabir müəllim.

Hörmətli həmkarlar, biz gündəliyimizin növbəti məsələlərinə keçirik və qeyd edim k, növbəti iki məsələ möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub, mahiyyətcə də bir-birinə yaxındır.

2-ci məsələ "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Konstitusiya qanununun layihəsidir, 3-cü məsələ isə Cəzaların İcrası

Məcəlləsində, digər 2 məcəllədə və 3 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Hörmətli həmkarlar, qeyd edim ki, 2-ci məsələ birinci oxunuşda müzakirəyə təqdim edilir. 3-cü məsələ isə uyğunlaşdırma xarakteri daşıyır, ona görə də bir oxunuşda baxılıb qəbul ediləcək. Bildiyiniz kimi, bu, qanunvericiliyin tələbidir.

Hörmətli həmkarlar, təklif edirəm, biz əvvəlcə qanun layihələrinin təqdimatlarını dinləyək, sonra onları birlikdə müzakirə edək. Həmişə olduğu kimi, səsvermə ayrılıqda keçiriləcək. Qeyd edim ki, hər iki məsələyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır və ona görə də mən komitənin sədri hörmətli Əli müəllim Hüseynliyə söz vermək istəyirəm. Əli müəllim, buyurun, məlumat verin.

**Əli Hüseynli,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Bu gün, həqiqətən də, gündəliyimizdə olan vacib məsələlərdən biri də “Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında” Konstitusiya Qanununda edəcəyimiz dəyişiklikdir. Mən nə üçün vacib söylədim? Bir tək etdiyimiz o kiçik düzəlişlə bağlı deyil, mahiyyəti üzrə, bütövlükdə. Çünki biz əvvəlki çıxışlarımızda cənab Prezidentin 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi ilə bağlı Sərəncamının daha çox siyasi elementlərinə toxunduq və hesab edirəm ki, burada biz həmrəyik. Eyni zamanda, əlbəttə ki, bu sərəncam hüquqi və dövlət quruculuğu baxımından mühüm əhəmiyyət kəsb edir. Yəni Konstitusiyamızın 30 illiyidir. O Konstitusiya ki onun müəllifi Ulu Öndər Heydər Əliyev olub və Ulu Öndər Heydər Əliyevin dövründə, sonra cənab Prezident

İlham Əliyevin də dövründə Konstitusiya qanunları, referendum ilə Konstitusiyamız daha da inkişaf edib. Əlbəttə ki, Konstitusiya qanunları da, Konstitusiyada qeyd olunduğu kimi, Konstitusiyamızın ayrılmaz tərkib hissəsidir. Hesab edirəm ki, Konstitusiya inkişaf etməklə, Konstitusiya qanunları ilə o daha da zənginləşib. Ombudsmanı da biz Konstitusiya qanunu ilə qəbul edərkən həmin təsisatın xüsusi statusunu göstərmək istəyirdik. Konstitusion bir status vermişdik, onun cəmiyyətdəki yerini müəyyən etmişdik. Bu dövrə qədər də insan hüquqları üzrə müvəkkil bu səlahiyyətini uğurla yerinə yetirməkdədir.

Dəyişikliyin mənası isə Birləşmiş Millətlər Təşkilatının tövsiyələrindən irəli gəlir. Təklif olunub ki, "qanunsuz miqrantların saxlanılması" ifadəsi "müvafiq icra hakimiyyəti orqanının müvəqqəti yerləşdirmə" ifadəsi ilə əvəz olunsun. Hesab edirəm, tamamilə yerində olan bir ifadədir və həmkarlarımdan bu Konstitusiya qanununa birinci oxunuşda səs vermələrini xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim.

Hörmətli həmkarlar, qanun layihələrinə İnsan hüquqları komitəsində də baxılmışdır. İndi isə komitənin rəyini bildirmək üçün hörmətli Zahid müəllimə söz vermək istəyirəm. Zahid müəllim, buyurun.

**Zahid Oruc,** *Milli Məclisin İnsan hüquqları komitəsinin sədri.*

Təşəkkür edirəm. Hörmətli sədr, hörmətli Məclis üzvləri. Hörmətli sədr, Siz giriş nitqinizdə cənab Prezidentin dünən imzaladığı sərəncam üzərində dayandınız. Konstitusiya qanunu olduğu üçün bir neçə kəlmə ilə o barədə çox qısa demək istəyirəm.

Cənab Prezident tərəfindən imzalanan sənəd Vətən

müharibəsində parlaq qələbəmizin birbaşa nəticəsi, dövlət quruculuğunun keyfiyyətcə yeni hüquqi mərhələsi adlandırıla bilər. Hakimiyyəti "azadlıq" şüarları ilə zəbt edən qüvvələrdən fərqli olaraq Azərbaycanı qanunsuzluq və anarxiyadan xilas edən Ulu Öndər Heydər Əliyevin rəhbərliyi, birbaşa müəllifliyi ilə 1995-ci ildə ilk Konstitusiya qəbul olundu. Lakin heç vaxt unutmayaq ki, Azərbaycanın sovet dövründə qəbul etdiyi ali qanunu gələcəkdə müstəqilliyin təməlini yaratmaqdan çox, elə müstəqil respublikanın dünyada ən mütərəqqi qanunu, sənədi idi. İndi Avropa Birliyinə üzv olan ölkələrin sərbəst qərar verə bilməməsini görəndə, yəqin, obyektiv müqayisələri apara bilərsiniz.

Son 30 ildə dövlət quruculuğunun baş planı adlandırılan ali sənəd bəşəri dəyərləri özündə əks etdirməsinə, xalqın iradəsinə söykənməsinə və ona uyğun siyasi quruluş və qanunlarla yaşamağımıza baxmayaraq, Konstitusiyamızın təməl prinsipləri, ərazi bütövlüyü, suverenlik, vətəndaşlarımızın doğma torpaqlarında yaşamaq və qurub-yaratmaq hüquqları natamam xarakter daşıyırdı. Torpaqlarımızın işğaldan azad edilməsi ilk növbədə Konstitusiyamızı bütövləşdirdi, ədalətin və qanunçuluğun təntənəsi oldu. Son 30 ildə yüzlərcə hüquqi akta qeyd-şərtlərlə qoşulmaq məcburiyyətinin aradan qalxması qanunlarımızı da azadlığa qovuşdurdu.

30 illik yubileyini qeyd edəcəyimiz ali sənədi zəfər Konstitusiyasına çevirmək üçün bütün hakimiyyət orqanları qarşısında mühüm vəzifələr durur. Milli Məclis qanunçuluğun inkişafı yolunda mühüm işlər görüb və ümidvarıq ki, gələn il yeni konstitusion islahatlar mərhələsində hər bir azərbaycanlının hüquq və azadlıqlarını

qorumaq, qalib dövlət quruculuğunu gücləndirmək üçün parlamentin üzərinə də daha böyük işlər düşür. Hörmətli sədr, bu mənada Sizin çıxışınızın bütün müddəalarını da müdafiə edirik.

İnsan hüquqları üzrə müvəkkil haqqında hörmətli Əli müəllim burada qeyd etdi. Bundan əvvəlki dövrdə də biz çox vacib əlavə və düzəlişlərdən yararlanmışdıq. Yeri gəlmişkən, deyim ki, ictimai rəy sorğularında müvəkkil qurumuna edilən bütün telefon zənglərinin və digər kommunikasiya vasitələrində cavablandırılması, demək olar, 100 faizə yaxın olan nəticələrdir. Bu, çox uğurlu nəticələrdir, bunu da bu tribunadan söyləmək istəyirəm.

"Qanunsuz miqrantların saxlanılması" ifadəsi "müvafiq icra hakimiyyəti orqanının müvəqqəti yerləşdirmə" ifadəsi ilə əvəz olunur. Bu da BMT-nin tövsiyəsidir. Əminəm ki, parlamentarilər ona səs verəcəklər. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, çıxışa yazılanlar yoxdur. Ona görə də mən məsələləri bir-bir səsə qoyacağam. Xahiş edirəm, indi 2-ci məsələyə, yəni Konstitusiya qanunu layihəsinə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.30 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, Konstitusiya qanununun layihəsi birinci oxunuşda qəbul edildi.

İndi isə 3-cü məsələdəki qanun layihəsini mən səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.30 dəq.) |
|---|---|
| Lehinə | 113 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 113 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin növbəti 3 məsələsi üçüncü oxunuşda olan qanun layihələridir. 4-cü məsələ "Azərbaycan Respublikasında mənzil fondunun özəlləşdirilməsi haqqında" Qanunda və digər 9 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Azər Əmiraslanova söz vermək istəyirəm. Azər müəllim, buyurun, söz Sizindir.

**Azər Əmiraslanov,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Təşəkkür edirəm, hörmətli xanım sədr. Təqdim olunmuş layihə həm birinci oxunuşda, həm də ikinci oxunuşda hörmətli deputat həmkarlar tərəfindən dəstəklənmişdir. Hər hansı təklif, rəy bildirilməmişdir və xahiş edərdik ki, bu layihə üçüncü oxunuş üçün olduğu kimi səsə qoyulsun. Təşəkkür edirəm.

**Sədrlik edən.** Azər müəllim, çox sağ olun. Bu məsələyə 3 komitədə də baxılıb. Hörmətli həmkarlar, artıq

bilirsiniz, bu, üçüncü oxunuşdur. Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində də baxılıb. Hörmətli Arzu müəllim, üçüncü oxunuşda komitənin rəyini bildirin. Buyurun.

**Arzu Nağıyev,** *Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, media nümayəndələri. Komitənin profilinə uyğun olan "Xidməti və mülki silah haqqında" Qanunda dəyişiklik ilə əlaqədardır. Birinci və ikinci oxunuşlarda baxılmışdır, əlavə rəy və təkliflər yoxdur. Komitəmiz tərəfindən üçüncü oxunuşa tövsiyə edilir, səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Arzu müəllim, çox sağ olun. İkinci komitə Hüquq siyasəti və dövlət quruculuğu komitəsidir. Komitənin rəyini bildirmək üçün Elşən Musayevə söz verirəm. Elşən müəllim, buyurun.

**Elşən Musayev,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsi sədrinin müavini.*

Təşəkkür edirəm, xanım sədr. Komitənin rəyi müsbətdir, səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Hörmətli Elşən müəllim, çox sağ olun. Üçüncü komitə isə, Zahid müəllim, sizin komitənizdir, İnsan hüquqları komitəsidir. Buyurun, komitənin rəyini bildirin.

**Zahid Oruc.** Hörmətli sədr, komitənin rəyi müsbətdir. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, mən layihəni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.32 dəq.) |
| Lehinə | 114 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 114 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Növbəti məsələ Əmək Məcəlləsində, Miqrasiya Məcəlləsində, "Əhalinin sağlamlığının qorunması haqqında" Qanunda və digər 14 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Əmək və sosial siyasət komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Musa Quliyevə söz verirəm. Musa müəllim, buyurun.

**Musa Quliyev,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Bu layihə barədə birinci və ikinci oxunuşlarda ətraflı məruzə edilmişdir və geniş müzakirələr aparılmışdır. Qanunun mətnində dəyişiklik yoxdur, olduğu kimi səsə qoymağınızı xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, bilirsiniz ki, bu məsələyə daha 5 komitədə baxılıb. Mən indi bir-bir komitələrin rəyini öyrənəcəyəm. Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin rəyini, Elşən müəllim, yenə də Siz verəcəksiniz. Buyurun, komitənin rəyini bildirin.

**Elşən Musayev**. Hörmətli xanım sədr, bu məsələ ilə bağlı komitəyə heç bir təklif daxil olmayıb, rəy müsbətdir, səsə qoyulmasını xahiş edirik.

**Sədrlik edən.** Çox sağ olun. Səhiyyə komitəsinin rəyini bildirmək üçün çox hörmətli Əhliman müəllimə söz verirəm. Əhliman müəllim, buyurun.

**Əhliman Əmiraslanov,** *Milli Məclisin Səhiyyə komitəsinin sədri.*

Hörmətli Sahibə xanım, hörmətli həmkarlar, Səhiyyə komitəsinin də qanun layihəsi ilə bağlı rəyi müsbətdir, səsə qoymağınızı xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

İnsan hüquqları komitəsinin rəyini, Zahid müəllim, buyurun, Siz bildirin.

**Zahid Oruc**. Hörmətli sədr, layihənin lehinəyik. Sağ olun.

**Sədrlik edən.** Siz sağ olun.

Azər müəllim, sizin komitənizin, İqtisadi siyasət, sə-

naye və sahibkarlıq komitəsinin, buyurun, rəyini bildirin.

**Azər Əmiraslanov.** Hörmətli xanım sədr, bizim komitənin də rəyi müsbətdir, dəstəklənir.

**Sədrlik edən.** Sonuncu komitə. Elm və təhsil komitəsi. Anar İsgəndərov. Anar müəllim, buyurun, komitənin rəyini bildirin.

**Anar İsgəndərov,** *Milli Məclisin Elm və təhsil komitəsinin sədri.*

Hörmətli xanım sədr, qanun layihəsi uyğunlaşdırma xarakteri daşıyır. Komitənin rəyi müsbətdir, səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Anar müəllim. Hörmətli həmkarlar, sözü, sualı olan yoxdur və mən qanun layihəsini səsə qoyuram. Buyurun. Anar müəllim, xahiş edirəm, mikrofonunuzu söndürün. Məsələni səsə qoyuram, hörmətli həmkarlar, buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.35 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 113 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu qanun layihəsi də üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, növbəti məsələmiz “Qaz təchizatı haqqında” və digər 5 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bilirsiniz ki, layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Azər

müəllim, mən yenə də sözü Sizə verirəm. Buyurun, məlumat verin.

**Azər Əmiraslanov**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, bu qanun layihəsi barədə də həm birinci, həm də ikinci oxunuşlarda ətraflı məlumat verilmişdir. Hər hansı qeyd, dəyişiklik, təklif olmamışdır və bu layihənin də üçüncü oxunuş üçün olduğu kimi səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində də baxılmışdır. Hörmətli Sadiq müəllim, Sizdən xahiş edirəm, komitənin rəyini bildirin. Sadiq Qurbanov, komitə sədri. Buyurun.

**Sadiq Qurbanov,** *Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri.*

Çox sağ olun, dəyərli Sahibə xanım. Komitənin rəyi müsbətdir, səsə qoyulmasını xahiş edirik.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, sözü, sualı olan yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.36 dəq.) |
|---|---|
| Lehinə | 112 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 113 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyimizin növbəti iki məsə-

ləsi uyğunlaşdırma xarakteri daşıyır. Odur ki, bildiyiniz kimi, bu qanun layihələri bir oxunuşda baxılıb qəbul ediləcək və yenə də xatırladım, bu, "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələbidir. 7-ci məsələ Mülki Məcəllədə və "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə, təbii ki, birinci, Ailə, qadın və uşaq məsələləri komitəsində baxılmışdır. Komitənin sədri hörmətli Hicran xanım Hüseynovaya söz vermək istəyirəm. Hicran xanım, buyurun, zəhmət olmasa, məlumat verin.

**Hicran Hüseynova,** *Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri.*

Hörmətli həmkarlar, media nümayəndələri. 2024-cü ilin iyul ayında Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu qəbul olundu və həmin qanuna əsasən nikah yaşının bir ildən çox olmayaraq azaldılması halı aradan qaldırıldı. Həmçinin yetkinlik yaşına çatmayanlarla qeyri-rəsmi, erkən nikaha daxil olan şəxslər və buna şərait yaradan valideynlər, qəyyumlar barəsində sanksiyalar sərtləşdirildi. İctimai iaşə obyektlərini idarə edən şəxslər tərəfindən erkən evliliklə bağlı mərasimlərin keçirilməsinə və yetkinlik yaşına çatmayan şəxslər barəsində dini kəbin kəsməyə görə məsuliyyət müəyyən edildi.

Təqdim olunan Azərbaycan Respublikasının Mülki Məcəlləsində və "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan

Respublikası qanununun layihəsi yuxarıda qeyd etdiyim qanunun icrası məqsədi ilə hazırlanmışdır. Təklif olunan dəyişikliklər dəqiqləşdirmə və uyğunlaşdırma xarakteri daşıyır. Layihə baxılması üçün Milli Məclisin müzakirəsinə tövsiyə edilmişdir. Məlumatı nəzərə almağınızı xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Hicran xanım, çox sağ olun. Bu layihəyə bir komitədə də baxılmışdır – Hüquq siyasəti və dövlət quruculuğu komitəsində. Əli müəllim, özünüz məlumat verəcəksiniz. Buyurun.

**Əli Hüseynli.** Çox sağ olun, hörmətli sədr. Bizim komitəmiz lehinədir, uyğunlaşdırma xarakterli layihədir. Çox sağ olun.

**Sədrlik edən.** Əli müəllim, çox sağ olun. Hörmətli həmkarlar, müzakirəyə yazılanlar yoxdur, uyğunlaşdırma xarakteri daşıyır və mən qanun layihəsini səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.39 dəq.) |
|---|---|
| Lehinə | 113 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 113 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun qəbul edildi.

Növbəti məsələ “Məktəbəqədər təhsil haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Elm və təhsil komitəsində baxılmışdır. Ona görə mən komitənin sədri Anar İsgəndərovdan xahiş edirəm.

Anar müəllim, buyurun, məlumat verin.

**Anar İsgəndərov**. Hörmətli xanım sədr, hörmətli həmkarlar, qanun layihəsi uyğunlaşdırma xarakteri daşıyır. Komitənin rəyi müsbətdir, səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Anar müəllim. Hörmətli həmkarlar, yazılanlar yoxdur. Mən məsələni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.40 dəq.) |
|---|---|
| Lehinə | 112 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 113 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun qəbul edildi.

Növbəti məsələ Miqrasiya Məcəlləsində və "Dövlət rüsumu haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Qeyd edim ki, layihə üçüncü oxunuşda təqdim olunur. Qanun layihəsinə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün, Əli müəllim, mən yenə də Sizdən xahiş edəcəyəm. Buyurun, məlumat verin.

**Əli Hüseynli**. Çox sağ olun, hörmətli xanım sədr. Mən bu layihə haqqında birinci və ikinci oxunuşlarda geniş məlumat vermişdim. Onun konsepsiyası barədə məlumat vermişdim və həmkarlarımla fikir mübadiləsi olmuşdur, dəstəklənmişdir. İkinci oxunuşdan sonra isə qanunvericilik təşəbbüsü subyektinin özü tərəfindən bir təklif daxil olub, komitə tərəfindən də dəstəklənib. O təklif bundan ibarətdir

ki, 20.1-ci maddəyə yeni bir, ikinci cümlə əlavə edilsin. “Xarici ölkələrin müvafiq orqanları tərəfindən Azərbaycan Respublikasının vətəndaşlarına münasibətdə bu Məcəllədə Azərbaycan Respublikasına gələn əcnəbilər və vətən-daşlığı olmayan şəxslər üçün müəyyən edilmiş müvəqqəti olma müddətləri ilə bağlı fərqli qaydalar tətbiq edildikdə müvafiq icra hakimiyyəti orqanının qərarı ilə qarşılıqlı olaraq fərqli qaydalar müəyyən edilə bilər”.

Hörmətli sədr, biz bu gün müstəqillik, suverenlik haqqında həm də bir çox siyasi fikirlərimizi bölüşdük. Mən hesab edirəm, təklif olunan bu əlavə özü də müəyyən mənada Azərbaycanın suverenliyinin qanunvericilikdəki elementlərindən biridir və ümidvaram, əminəm ki, hörmətli həmkarlarım da Miqrasiya Məcəlləsinə edilən bu mühüm əlavəni də dəstəkləyəcəklər. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Hörmətli həmkarlar, səsə qoymazdan əvvəl biz İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin də rəyini bilməliyik. Sonra isə sizin təklifinizə baxarıq. Azər müəllim, buyurun, bu məsələyə sizin komitənizdə də baxılıb.

**Azər Əmiraslanov**. Təşəkkür edirəm, hörmətli xanım sədr. Komitənin rəyi müsbətdir. Üçüncü oxunuşda da layihə tərəfimizdən dəstəklənir.

**Sədrlik edən.** Çox sağ olun. Təklif var, məsələni səsə qoyaq?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Çox sağ olun. Mən qanun layihəsini səsə qoyuram. Buyurun.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.43 dəq.) |
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bildiyiniz kimi, hər il Dünya azərbaycanlılarının həmrəyliyi günü ərəfəsində Milli Məclis soydaşlarımıza və həmvətənlərimizə müraciət edir. Gündəliyin sonuncu, 10-cu məsələsi məhz Milli Məclisin Müraciəti ilə bağlıdır. Müraciətin mətni hazırdır və onu səsləndirmək üçün mən həmkarımız hörmətli Samir Vəliyevə söz vermək istəyirəm. Samir müəllim, buyurun.

**Samir Vəliyev.** Dünya azərbaycanlılarının həmrəyliyi günü münasibəti ilə Azərbaycan Respublikası Milli Məclisinin Müraciəti.

Əziz soydaşlar, dəyərli həmvətənlər!

Sayına və intellektual potensialına görə dünyanın böyük millətləri ilə bir sırada dayanmağa haqqı çatan qüdrətli Azərbaycan xalqını milli-mənəvi bütövləşməyə çağırış günü münasibəti ilə hər birinizi səmimi qəlbdən salamlayırıq. Tariximizə və mədəniyyətimizə dərin kök salmış həmrəylik günü dil, əqidə, əməl birliyimizin rəmzinə çevrilmişdir. Biz bu günü qeyd edərkən xalqımızın əsrlər boyu yaratdığı milli dəyərlərə sadiqliyimizi, onları daha da artıraraq gələcək nəsillərə ötürmək əzmində olduğumuzu ifadə edirik.

Bəşər sivilizasiyasının inkişafının indiki mərhələsi dünyanın siyasi mənzərəsinin sürətlə dəyişməsi, millətlərin tarix səhnəsində oynadıqları rolların keyfiyyətcə yeniləşməsi ilə fərqlənir. Həyat sübut edir ki, etnik-siyasi baxımdan mütəşəkkil qüvvəyə çevrilə bilməyən xalqlar ümumdünya inkişafında tutduqları mövqeləri tədricən itirir, getdikcə zəifləyərək öz hüquq və mənafelərini həyata keçirmək imkanlarından məhrum olurlar.

Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə otuz üç il öncə başlanmış milli-mənəvi bütövləşmə hərəkatı getdikcə daha geniş vüsət alır. Dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımız ümummilli məqsədlərimizin gerçəkləşməsi naminə milli birliyin misilsiz əhəmiyyət daşıdığını dərindən dərk edirlər. Azərbaycan icmaları və diaspor təşkilatları inkişaf edib möhkəmlənir, soydaşlarımızın və həmvətənlərimizin siyasi, iqtisadi, sosial və mədəni hüquqlarının müdafiəsi işində yaxından iştirak edirlər.

Dünya azərbaycanlılarının bir-biri ilə və tarixi Vətənlə əlaqələrinin güclənməsinə, Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan soydaşlarımızın hüquq və mənafelərinin, təhlükəsizliyinin, milli kimliyinin qorunmasına, onların inkişafına, Azərbaycan dilini, ənənələrini və mədəniyyətini qoruyub saxlamasına, dəfələrlə soyqırımına və deportasiyaya məruz qalmış Qərbi azərbaycanlıların hüquqlarının bərpasına və zorla tərk etməyə məcbur olduqları ata-baba torpaqlarına qayıtmasına dəstək verilməsi Azərbaycan Respublikasının dövlət siyasətinin ayrılmaz tərkib hissəsini təşkil edir.

Əziz soydaşlar, dəyərli həmvətənlər!

Ötən bir ildə Azərbaycan Respublikası yeni böyük uğurlara nail olmuşdur. Ölkəmizin siyasi, iqtisadi və hərbi

potensialı daha da artırılmışdır. Əhalinin yaşayış səviyyəsi yüksəlmişdir. Dövlətimizin beynəlxalq mövqeləri daha da möhkəmlənmişdir.

İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatı nəticəsində ərazi bütövlüyümüz və suverenliyimiz tam bərpa edildikdən sonra ölkəmizin bütün ərazisində azad və ədalətli prezident və parlament seçkilərinin keçirilməsi dövlətimizin sülh və sabitlik şəraitində demokratik inkişafında yeni mərhələ açmışdır.

Dünya miqyaslı tədbir olan COP29 konfransının Bakıda keçirilməsi ölkəmizin iqlim dəyişmələri probleminin həlli üçün göstərilən beynəlxalq səylərdə liderliyini təsdiq etmişdir. İqtisadi Əməkdaşlıq Təşkilatının Qahirədə keçirilən Zirvə görüşündə Azərbaycanın yekdil qərarla D-8 təşkilatına üzv qəbul edilməsi dövlətimizin xarici siyasətinin yeni böyük uğuru olmuşdur.

Əziz soydaşlar, dəyərli həmvətənlər!

Azərbaycan Respublikası bütün dünya azərbaycanlılarının ümid və istinad yeri, ata-baba yurdu olduğundan Asiyada, Avropada, Amerikada və başqa qitələrdə yaşayan soydaşlarımız doğma Vətəndə baş verən ictimai-siyasi prosesləri diqqətlə izləyir, dövlətimizin milli mənafelərə uyğun olan müstəqil siyasət yeritməsindən, dünya birliyinin sayılıb-seçilən üzvlərindən birinə çevrilməsindən məmnunluq duyurlar.

Yeni tarixi dövrün astanasında Azərbaycan xalqı yeni imkanlara və nailiyyətlərə hazırdır. Keçmişdə qarşılaşdığımız çətinliklər bizi daha güclü etmişdir. Şübhə yoxdur ki, xalqımızın yeni dövrdə davamlı yüksəlişinin yolu on milyonlarca soydaşımızın və həmvətənimizin milli-mənəvi birliyinin möhkəmlənməsindən keçir.

Azərbaycanın dünyaya daha yaxından tanıdılması, xalqımızın qədim adət-ənənələrinin, gözəl dilinin, zəngin mədəniyyətinin yaşadılması və təbliğ edilməsi sahəsində görüləsi işlərimiz çoxdur. Soydaşlarımızın və həmvətənlərimizin bir vəzifəsi də yaşadıqları ölkələrin ictimai-siyasi həyatına inteqrasiya etməklə bərabər, milli özgünlüyümüzü uca tutmaq, milli hüquqlarımızı qorumaq, hər sahədə bir-birinə dəstək olmaqdır.

Əziz soydaşlar, dəyərli həmvətənlər!

Sizi ümummilli qayələrimizin gerçəkləşməsi naminə sıx birləşməyə çağırır, xalqımızın mənafelərinin qorunması uğrunda mübarizəyə səsləyirik. Dünya azərbaycanlılarının həmrəyliyi günü münasibəti ilə hamınızı ürəkdən təbrik edir, hər birinizə can sağlığı, ailə səadəti, firavanlıq arzulayır, doğma Azərbaycanımıza nurlu gələcək diləyirik!

Hörmətlə, Azərbaycan Respublikasının Milli Məclisi. (*Alqışlar.*)

**Sədrlik edən.** Çox sağ olun, Samir müəllim.

Hörmətli həmkarlar, necə baxırsınız, Müraciəti səsə qoya bilərikmi?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Çox sağ olun. Onda səsə qoyulsun. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.50 dəq.) |
|---|---|
| Lehinə | 112 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 112 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, Müraciət qəbul edildi.

Hörmətli həmkarlar, yeddinci çağırış Milli Məclisin ilk sessiyası olan 2024-cü ilin payız sessiyası bu gün başa çatır. İcazənizlə, mən sessiya ərzində görülmüş işlər haqqında sizə qısa məlumat verim.

Bildiyiniz kimi, sentyabrın 23-də yeddinci çağırış Milli Məclisin birinci iclasında Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyev dərin məzmunlu və proqram xarakterli nitq söyləmişdir. Diqqətə çatdırmaq istərdim ki, ötən dövrdə parlamentin fəaliyyəti dövlət başçısının həmin nitqində elan etdiyi strateji hədəflər və milli prioritetlər nəzərə alınmaqla qurulmuşdur.

Ölkəmizin qarşılaşdığı müasir çağırışlar şəraitində aktual məsələlərin həllinə parlament səviyyəsində kömək göstərilməsi üçün Milli Məclisin tarixində ilk dəfə olaraq Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiya, habelə Qərbi Azərbaycana qayıdış üzrə təşəbbüs qrupu yaradılmışdır.

Hörmətli həmkarlar, payız sessiyasında Milli Məclisin Konstitusiya ilə nəzərdə tutulan səlahiyyətləri tam yerinə yetirilmişdir.

Bununla əlaqədar mən belə bir məqama diqqəti cəlb etmək istəyirəm ki, hər dəfə biz Milli Məclisin fəaliyyətinə yekun vurarkən bu fəaliyyətin uğurlarına şərait yaradan amillər sırasında hakimiyyətin müxtəlif qolları arasında səmərəli əməkdaşlıq əlaqələrini hökmən qeyd edirik.

Bu baxımdan Milli Məclis ilə Prezident Administrasiyasının müvafiq şöbələri arasında mütəmadi xarakter daşıyan iş birliyinin əhəmiyyəti xüsusi vurğulanmalıdır.

Eyni zamanda, mən parlamentlə hökumət arasında konstruktiv əməkdaşlığı da bir daha qeyd etmək istəyirəm.

Başa çatan sessiya ərzində hökumətin müxtəlif strukturlarının, o cümlədən nazirliklərin və dövlət komitələrinin nümayəndələri Milli Məclisin və komitələrin iclaslarına dəvət olunmuş, qanun layihələrinin müzakirəsi zamanı onların rəyləri dinlənilmişdir. Eyni zamanda, deputatların bir sıra mülahizə və təklifləri də icra orqanları tərəfindən nəzərə alınmışdır.

Hörmətli həmkarlar, parlamentin birinci iclası da daxil olmaqla, payız sessiyasında Milli Məclisin 19 plenar iclası keçirilmiş, 84 qanun və 41 qərar qəbul edilmişdir. 130 komitə iclası keçirilmişdir.

"COP29-a qarşı hibrid təhdidlər" mövzusuna həsr edilən 1 ictimai müzakirə keçirilmişdir. Yeri gəlmişkən, qeyd edim ki, bu tədbir Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiya tərəfindən təşkil edilmişdir.

Qərbi Azərbaycana qayıdış üzrə təşəbbüs qrupunun təşkilatçılığı ilə keçirilən ictimai dinləmə isə "Qərbi Azərbaycana təhlükəsiz və ləyaqətli qayıdış" mövzusuna həsr edilmişdir. Ümumiyyətlə, qeyd edilməlidir ki, Qərbi Azərbaycana qayıdış məsələlərini Milli Məclis daim diqqət mərkəzində saxlayır. Son illərdə parlamentdə bu qəbildən olan bir sıra tədbirlər təşkil edilmişdir.

Hörmətli həmkarlar, qanunvericilik və qanunyaratma sahəsində görülən işlərlə yanaşı, Milli Məclis bəzi beynəlxalq qurum və xarici dövlətlərin Azərbaycanı gözdən salmağa, onun suverenliyinə qəsd etməyə yönələn aktlarına kəskin münasibətini bildirmişdir.

Qeyd edim ki, bu məsələlərlə bağlı Milli Məclis sədrinin adından xarici dövlətlərin parlament sədrlərinə və beynəlxalq parlament təşkilatlarının rəhbərlərinə müraciətlər

də göndərilmişdir. Həmçinin dostluq qruplarının adından da belə məktublar göndərilmişdir.

Hörmətli həmkarlar, sessiya dövründə Milli Məclis deputatlarının seçki dairələrində işinə xüsusi diqqət yetirilmişdir. Millət vəkilləri öz seçiciləri ilə müntəzəm görüşlər keçirmiş, onları düşündürən məsələləri Milli Məclisin iclaslarında, eləcə də digər hakimiyyət orqanları qarşısında qaldırmışlar.

Milli Məclisdə vətəndaşların qəbulu və müraciətlərinə baxılması sahəsində lazımi tədbirlər həyata keçirilmişdir.

Hörmətli deputatlar, Milli Məclisin beynəlxalq əlaqələrinin inkişafı üçün də zəruri tədbirlər görülmüşdür. Milli Məclisin 57 üzvü tərəfindən 24 xarici ölkəyə 80 səfər həyata keçirilmişdir. Deputatlar 11 beynəlxalq təşkilatın tədbirlərində iştirak etmişlər.

Milli Məclisin sədri Türkiyəyə rəsmi, İsveçrə, Rusiya və Tacikistana isə işgüzar səfərlər həyata keçirmişdir.

60 ölkənin, 16 beynəlxalq təşkilatın və 14 beynəlxalq təsisatın 104 nümayəndə heyəti, ümumən 457 nəfər xarici qonaq Milli Məclisdə olmuşdur.

Milli Məclisin sədri Milli Məclisdə 9 ölkənin parlament sədrləri və sədr müavinləri, 6 beynəlxalq təşkilatın rəhbərləri, 1 ölkənin icra hakimiyyəti orqanının nümayəndəsi, 10 dövlətin Azərbaycandakı səfirləri ilə görüşlər keçirmişdir. Həm deputatların, həm də Milli Məclis sədrinin səfərlərində və görüşlərində dövlətimizin xarici siyasətinin parlament ölçüsünü təmin etmək üçün parlament diplomatiyasının imkanlarından istifadə edilmişdir.

Parlamentin beynəlxalq əlaqələrinin inkişafına yönələn tədbirlərdən biri də Tolerantlıq və Sülh naminə Beynəlxalq Parlament ilə Anlaşma Memorandumunun imzalan-

ması olmuşdur.

Deputatlarımız Qazaxıstanda keçirilən referendumu, Özbəkistanda və Gürcüstanda keçirilən parlament seçkilərini müşahidə etmişlər.

Hörmətli həmkarlar, Milli Məclis 2 beynəlxalq tədbirə ev sahibliyi etmişdir. Bildiyiniz kimi, Bakıda böyük uğurla keçirilmiş COP29 çərçivəsində noyabrın 16-da və 17-də Parlamentlərarası İttifaq və Milli Məclisin birgə təşkilatçılığı ilə böyük bir konfrans baş tutmuşdur.

Tədbirdə milli parlamentləri, parlamentlərarası təşkilatları, habelə müxtəlif təsisatları təmsil edən 67 ölkədən 95 nümayəndə heyəti, başqa sözlə, 345 nəfər parlament təmsilçisi iştirak etmişdir.

Dekabrın 7-də isə Milli Məclisdə Azərbaycan parlamentinin 106-cı ildönümünə həsr edilən Beynəlxalq parlament konfransı keçirilmişdir. Tədbirdə Milli Məclisin deputatları, Türkiyə, Rusiya, Pakistan, Özbəkistan, Gürcüstan, Qazaxıstan, Tacikistan, Qırğızıstan, Belarus, İraq, Efiopiya, İndoneziya, Malayziya parlamentlərinin və TürkPA, MDB-nin Parlamentlərarası Assambleyası kimi beynəlxalq təşkilatların 100-ə yaxın nümayəndəsi iştirak etmişdir. Konfransda “Parlamentarizm: ənənələr və perspektivlər” mövzusu ətrafında müzakirələr aparılmış, 27 nəfər çıxış etmişdir.

Bundan əlavə, tədbir çərçivəsində ADA Universitetində “İctimai diplomatiyada parlamentlərin rolu: Azərbaycan və Türkiyə nümunəsi” mövzusunda Beynəlxalq dəyirmi masa keçirilmişdir. “Parlamentlərin ictimai diplomatiyada rolu” və “Parlamentlərin fəaliyyətində rəqəmsal texnologiyalar və kütləvi informasiya vasitələrinin rolu” mövzuları ətrafında fikir mübadiləsi aparılmışdır.

Beləliklə, hörmətli həmkarlar, Milli Məclis payız sessiyasını uğurla başa çatdırır. Bununla əlaqədar mən səmərəli iş üçün sizin hər birinizə təşəkkür edirəm.

Hörmətli həmkarlar, bilirsiniz ki, qarşıdan bizim gözəl bayramlarımız gəlir. İki gündən sonra xalqımız Dünya azərbaycanlılarının həmrəyliyi gününü, daha sonra Yeni ili qeyd edəcəkdir.

Təklif edirəm ki, möhtərəm Prezident cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya Milli Məclis adından təbrik məktubları ünvanlayaq. Azərbaycan dövlətinin bu günü və sabahı naminə dəyərli fəaliyyətlərində onlara yeni böyük uğurlar arzulayaq. *(Alqışlar.)*

Hörmətli həmkarlar, mən bayramlar münasibəti ilə sizin hər birinizi səmimi qəlbdən təbrik edirəm! Hamınıza can sağlığı, firavanlıq və xoşbəxtlik diləyirəm.

Eyni zamanda, bizi burada həmişə müşahidə edən media nümayəndələrini, – onlar da bizimlə bərabər çalışırlar, işləyirlər, – onların da hər birini mən ürəkdən təbrik edirəm. Onlara da can sağlığı və xoşbəxtlik arzulayıram.

Hörmətli həmkarlar, Milli Məclisin payız sessiyasını bağlı elan edirəm.

*(Azərbaycan Respublikasının Dövlət Himni səslənir.)*

# EDİLMƏMİŞ ÇIXIŞLARIN MƏTNLƏRİ

## ***29 dekabr 2024-cü il***

**Anar Məmmədov.** Dekabrın 25-də "Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin qəzaya uğraması və 38 nəfərin həlak olması hamımızı sarsıtdı.

MDB-yə üzv olan ölkələrin dövlət başçılarının Zirvə görüşündə iştirak etmək üçün Rusiya Federasiyasına yola düşən Prezident İlham Əliyev xəbəri təyyarədə aldıqdan dərhal sonra səfərini yarımçıq qoyub geri döndü, elə hava limanında müşavirə keçirdi, qəzanın səbəblərinin araşdırılması və təxirəsalınmaz tədbirlərin görülməsi üçün aidiyyəti dövlət qurumlarına tapşırıqlarını verdi.

Bu kədərli hadisə Azərbaycan xalqının öz dövləti ilə həmrəyliyini, çətin anlarda belə sağlam düşüncələrlə düzgün hərəkət etmək iqtidarında olduğunu bi[illegible] ortaya qoydu. Lakin təəssüflər olsun ki, bu ümu[illegible] kədərindən belə, spekulyasiya vasitəsi kimi [illegible] etməyə çalışaraq, rəyçaşdırıcı arqumentlər irəli sürərək şübhə toxumları əkənlər var. Siyasi riyakarlığı özünə peşə seçmiş "beşinci kolon" nümayəndələri Azərbaycan dövlətinin maraqlarına xəyanət etməklə yanaşı, öz mövcudluqlarını qorumaq üçün hər addımda siyasi şou hazırlayıb dividend qazanmağa çalışırlar. Antiazərbaycançı mərkəzlərlə işbirliyində olan radikal ünsürlər ölkəmizin əleyhinə şər-böhtanlar yaymağa çalışır, hətta siyasi etiket qaydalarını belə gözləmirlər.

Hər şeydən əvvəl bu hadisə bir ölkənin faciəsidir.

Ondan kiminsə siyasi məqsədlə istifadə etməyə çalışması insanlığa yaraşmayan hərəkətdir. Müxalifət bu hadisədən özü üçün dividend qazanmaq istəyirsə, bunu insan ləyaqətinə sığmayan hərəkət hesab etmək lazımdır. Digər tərəfdən isə bu formada ucuz təbliğat aparmaq heç bir siyasi təşkilata başucalığı gətirməz. Özünü bu cür vətənpərvər göstərməyə çalışmaqla hörmət qazanmaq mümkün deyil. Çünki hər kəs bilir ki, bu, tamamilə riyakarlıqdır, qeyri-səmimi bir hərəkətdir və bununla siyasi nüfuz qazanmaq, siyasi dividendlər əldə etmək mümkün deyil.

Bununla belə, məlum qüvvələr hələ də tarixin keçdiyi dərsdən nəticə çıxarmaq istəyində deyillər. Fəaliyyəti daha çox Azərbaycanda xaotik bir durumun formalaşmasına köklənmiş və hələ də hakimiyyətdə olduqları bir ilin eyforiyasında yaşayan, köhnə təfəkkürdən əl çəkə bilməyən radikal müxalifətin istək və əməli bunun real təcəssümüdür. Adını müxalifət qoysa da, əməlləri daha çox xalqa və onun formalaşdırdığı müstəqil dövlətə qarşı yönələn, beləliklə də, əsl mahiyyətini istər-istəməz faş edən radikal qüvvələrin Azərbaycanda nədən hər vəchlə sabitliyin pozulmasına, anarxiyanın yaranmasına çalışmasının səbəbi, əslində, heç kimə sirr deyil! Çünki heç bir sosial bazası olmayan, xalqdan özünü təcrid edən radikal müxalifət yalnız bu halda yenidən hakimiyyətə qayıda biləcəyinə ümid bəsləyir. Ancaq o da maraqlıdır ki, Azərbaycanda 1990-cı illərin əvvəllərində mövcud olan xaotik durumun yaranmasını həm də ölkəmizə qarşı çıxan qüvvələr istəyir. Deməli, radikal müxalifət də, müstəqil Azərbaycana zidd çıxan qüvvələr də əməlləri ilə faktiki olaraq eyni bir şəbəkəyə bağlıdırlar. Digər tərəfdən,

müxalifətin sözügedən qanadına elə antiazərbaycançı mövqedə dayananlar tərəfindən vəsait ayrılması, bunun əvəzində müxalifət təmsilçilərinin, onların rəhbərlərinin həmin qüvvələr qarşısında müəyyən öhdəliklər götürməsi, vədlər verməsi elə radikalların öz düşərgəsində tez-tez etiraf edilən həqiqət, bəzən isə bir-birilərinə qarşı səslənən ittihamdır.

Təyyarə qəzasında həyatını itirənlərə bir daha Allahdan rəhmət, hər birimizə səbr diləyirik.

**Bəhruz Məhərrəmov.** Konstitusiyamızın 10-cu maddəsinə müvafiq olaraq, Azərbaycan Respublikası başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurur. Çoxşaxəli tarazlaşdırılmış xarici siyasət həyata keçirən ölkəmiz beynəlxalq aləmdə gedən inteqrasiya və əməkdaşlıq prosesləri çərçivəsində digər dövlətlərlə suverenliyə və ərazi bütövlüyünə hörmət, sərhədlərin toxunulmazlığı və daxili işlərə qarışmama kimi beynəlxalq hüququn hamılıqla qəbul edilmiş norma və prinsipləri əsasında dostluq və qarşılıqlı faydalı münasibətlərin qurulmasında maraqlıdır və buna nail olmaq üçün səy göstərir. Təbii ki, bu kurs həm iqtisadi, həm də sosial ölçülərin bərabər səviyyədə nəzərə alınmasını tələb edən kompleks bir məsələdir.

Üçüncü oxunuşda olan Miqrasiya Məcəlləsinin 20.1-ci maddəsinə ikinci cümlənin əlavə edilməsi təklifi məhz bu konsepsiya əsasında irəli sürülüb.

Konkret desək, Azərbaycan Respublikası hər bir xarici siyasət məsələsində olduğu kimi, müvəqqəti olma və miqrasiya məsələlərində də haqlı və ədalətli olaraq paritet və qarşılılıq prinsiplərindən çıxış edəcək.

**Fatma Yıldırım.** Azərbaycan xalqı olaraq 31 dekabr – Dünya azərbaycanlılarının həmrəyliyi günü ərəfəsindəyik. Həmrəylik günü milli birlik, Azərbaycana məhəbbət, milli-mənəvi dəyərlərimizə hörmət, vətənə bağlılıq hisslərini özündə təcəssüm etdirir. 44 günlük Vətən müharibəsi Azərbaycan xalqının birliyini, hər zaman Prezident, Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx səfərbər olduğunu bir daha nümayiş etdirdi. Vətən müharibəsində dünyanın bütün ölkələrində yaşayan azərbaycanlılar da tarixdə görünməmiş dərəcədə fəallıq göstərdilər, daha sıx birləşdilər. Yaşadıqları ölkələrdə Azərbaycanın haqq səsinin eşidilməsi üçün səylərini əsirgəmədilər. Vətən müharibəsi və Qarabağda antiterror tədbirləri zamanı xaricdə yaşayan soydaşlarımızın düşmənin və anti-Azərbaycan dairələrin məkrli təxribatlarına qarşı cəsarətli etirazları, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işində fədakar xidmətləri qələbəmizə layiqli töhfə oldu.

Azərbaycan xalqı olaraq hər zaman çətin anlarda birlik və həmrəylik nümayiş etdirmişik. "Azərbaycan Hava Yolları" şirkətinə məxsus sərnişin təyyarəsinin faciəvi şəkildə Aktauda qəzaya uğraması, qəza nəticəsində insan itkisinin olması hər birimizi kədərləndirir. Dünya azərbaycanlılarının həmrəyliyi günü ərəfəsində baş vermiş bu faciə ilə bağlı da bütün xalqımız həmrəydir, bu ağrı-acı hamımızın acısıdır.

Bu faciə ilə əlaqədar ölkəmizdə fəaliyyət göstərən siyasi partiyaların da birgə bəyanat imzalayaraq eyni mövqe ifadə etməsi də təqdirəlayiq addımdır və bu, taleyüklü məsələlərdə siyasi baxışlarından asılı olmayaraq siyasi qüvvələrin həmrəyliyinin və dövlətimizə siyasi

dəstəyinin göstəricisidir.

Lakin hazırda dünyada, o cümlədən yaxın regionlarda baş verən mürəkkəb proseslər, sabitliyə təhdidlər bütün dünya azərbaycanlılarının həmrəyliyini, haqq-ədalət uğrunda mübarizəmizi daha da mətinləşdirməyi zəruri edir. Müzəffər Ali Baş Komandanımız, Prezident İlham Əliyev hər zaman çıxışlarında milli birlik və həmrəyliyimizin gücləndirilməsinin vacibliyinə diqqət çəkir. Biz bu il ərzində də cənab İlham Əliyevin timsalında bütün dünya azərbaycanlılarının haqlarını qoruyan, onları bağrına basan güclü lider gördük. Dövlətimizin başçısı bütün beynəlxalq platformalarda azərbaycanlılarının haqlarını qətiyyətlə qoruyur. Cənab Prezidentin bütün soydaşlarımızın haqlarını qətiyyətlə qorumaq əzmi hər bir azərbaycanlıda sonsuz iftixar hissi yaradır. Biz qürur duyuruq ki, bütün dünya azərbaycanlılarının cənab İlham Əliyev kimi lideri var! Bu gün bütün dünya günü-gündən güclənən Azərbaycanı görür və bu amil əminlik yaradır ki, Azərbaycan dövləti cənab Prezident İlham Əliyevin liderliyi ilə bütün hədəflərinə nail olacaq!

Təbii ki, bu prosesdə bütün soydaşlarımız birlik və həmrəyliyini daha da gücləndirməlidirlər. İnanırıq ki, hər bir azərbaycanlı bu müqəddəs yolda özünün töhfələrini verəcək.

Mən başda möhtərəm cənab Prezidentimiz İlham Əliyev və Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyeva olmaqla hər birinizi qarşıdan gələn 31 dekabr – Dünya azərbaycanlılarının həmrəyliyi günü və Yeni il münasibətilə ürəkdən təbrik edir, fəaliyyətinizdə uğurlar arzulayıram. Ümidvaram ki, qarşıdan gələn 2025-ci il də ölkəmiz üçün düşərli olacaq və il ərzində qarşıya qoyulan

milli hədəflərimizə nail olacağıq!

**Kamaləddin Qafarov.** 2024-cü il Azərbaycan üçün bir çox sahədə uğurlar ili kimi tarixə düşdü. İl ərzində həm daxili, həm də beynəlxalq arenada əldə edilən nailiyyətlər ölkəmizin inkişaf salnaməsinə yeni uğur səhifələri yazdı. Bu il Azərbaycanı səciyyələndirən ən mühüm məqamlardan biri onun həm iqtisadi, həm də mədəni baxımdan güclənməsi oldu.

Azərbaycanın qeyri-neft sektoru üzrə əldə etdiyi artım, yerli istehsalın təşviqi və ixrac potensialının artırılması ölkə iqtisadiyyatının dayanıqlı inkişafını təmin etdi. Bu istiqamətdə həyata keçirilən islahatlar, xüsusən də kənd təsərrüfatı, sənaye və texnologiya sahələrində yeniliklər, regionlarda məşğulluğu artıraraq sosial rifahı yüksəltdi.

2024-cü ilin iqtisadi yekunlarından danışarkən, ilk növbədə, birmənalı olaraq qeyd etmək lazımdır ki, ölkəmiz bu ili  bütün sahələrdə müsbət nəticələrlə başa vurur. İstər ümumi daxili məhsul istehsalında, istər neft, istərsə də qeyri-neft sektorunda 2023-cü illə müqayisədə aşkar artım müşahidə olunur.

Başa çatmaqda olan 2024-cü ildə iqtisadi artımın əldə olunmasını təmin edən mühüm amillərdən biri  cari ildə inflyasiyanın aşağı səviyyədə qalması oldu. Qlobal miqyasda heç bir sahədə ucuzlaşma baş verməsə də, ümumilikdə, qiymətlər yüksəyə də qalxmadı və istehlak bazarında nisbi stabil vəziyyət müşahidə olunmaqdadır. İl ərzində ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilə nisbətən təxminən 8 faizə qədər artıb. Bu isə bir milyon yarımdan çox insanın gəlirinin hiss ediləcək şəkildə  artması deməkdir. Gələn ildən minimum əməkhaqqının 345 manatdan 400 manata

qaldırılacağı gözlənilir. Eləcə də 2025-ci il yanvarın 1-dən əmək pensiyaçılarının pensiyaları da cari il ərzində orta aylıq nominal əməkhaqqının qeydə alınacaq yekun artım səviyyəsinə uyğun indeksləşdiriləcək.

2024-cü ildə gəlirlərin artdığı sahələrdən biri kimi də turizmi qeyd edə bilərik. Bu il ölkəmizə gələn xarici turistlərin sayı ötən illə müqayisədə 27 faizdən çox artıb. Bu artım həm Avropa İttifaqı, həm Körfəz, həm də MDB ölkələrindən gələnlərin sayında müşahidə olunub.

Cari ildə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransına – COP29-a Azərbaycanın uğurla ev sahibliyi etməsini xüsusi qeyd etmək lazımdır. Bu qlobal tədbirdə ölkəmiz indiyədək qazandığı siyasi və iqtisadi nüfuzu bir daha nümayiş etdirdi. 196 ölkədən aralarında 80 prezident, vitse-prezident və baş nazir olmaqla 72 mindən çox insan Azərbaycanın qonağı oldu, rayon və şəhərlərə səfərlər etdi.

Bakı COP29 İqlim Sammitinə ev sahibliyi edərək dünyada dayanıqlı inkişaf və ekoloji problemlərin həlli istiqamətində Azərbaycanın töhfəsini ortaya qoydu. Bu tədbir yalnız ekoloji problemlərə deyil, həm də Azərbaycanın beynəlxalq imicinə mühüm təsir göstərdi.

Mədəni sahədə isə Şuşa kimi mədəniyyət paytaxtımızın beynəlxalq tədbirlərlə zəngin bir il yaşaması həm yerli, həm də xarici qonaqlar üçün ölkəmizin cazibədarlığını artırdı. Mədəni irsimizin qorunması istiqamətində görülən işlər, eyni zamanda, Azərbaycan muğamı və milli musiqimizin dünyada təbliği mədəniyyətimizin gücünü bir daha nümayiş etdirdi.

2024-cü il həm də sosial sahədə islahatlar ili kimi yadda qaldı. Təhsil və səhiyyə sahələrində həyata keçirilən

layihələr, yeni məktəblərin və xəstəxanaların tikilməsi, vətəndaşların rifahını artıran konkret addımların atılması bunun bariz nümunəsidir.

Sonda bir məqamı da qeyd edim ki, bu il ölkəmizdə alternativ enerji mənbələrindən istifadə sahəsində də xeyli irəliləyiş əldə olunub. Yaşıl enerji mənbələri üzrə elektrik enerjisi istehsalı ötən ilin müvafiq dövrünə nisbətən 80 faizdən çox artıb. Ümumiyyətlə, Azərbaycan alternativ enerji mənbələrindən istifadə sahəsində bu gün kifayət qədər sürətlə irəliləyir. Əminik ki, 2025-ci ildə bu ildəkindən daha çox uğur və iqtisadi nəticələr əldə olunacaq.

**Malik Həsənov.** Artıq 2024-cü il başa çatmaq üzrədir. Cari il Azərbaycan üçün olduqca uğurlu bir il kimi tarixə düşdü. Məhz bu ildə ərazi bütövlüyümüzün və suverenliyimizin tam, qəti və əbədi şəkildə təmin edilməsindən sonra ölkəmizdə keçirilən prezident və parlament seçkiləri də ölkənin ictimai-siyasi həyatında mühüm bir hadisə olmaqla xalqımızın bu missiyaya növbəti dəstəyini, eyni zamanda, xalq–dövlət birliyini təcəssüm etdirdi.

Yadda qalan möhtəşəm tədbirlərdən biri isə COP29 oldu. Olduqca şaxəli, mahiyyətinə görə belə bir möhtəşəm tədbirin paytaxtımızda keçirilməsi, əldə olunan nəticələr ölkəmiz üçün son dərəcə əhəmiyyət kəsb edir.

Ölkəmizin sosial, iqtisadi, siyasi, mədəni həyatında, eləcə də digər sahələrdə böyük uğurlarla müşayiət olunan, Azərbaycan tarixinin səhifələrini zənginləşdirən daha bir uğurlu il kimi yaddaşlarda qalacaq. Bu uğurların reallaşmasında Prezident İlham Əliyev ictimai-siyasi fəaliyyəti ilə hər zaman olduğu kimi, ona həvalə edilən məsuliyyətli missiyanın öhdəsindən böyük əzmkarlıqla, layiqincə gəldi və dövlətin müstəqilliyinin möhkəmlənməsində, xarici

diplomatiyanın uğur qazanmasında bütün səy və bacarığını ortaya qoydu.

Bu uğurlar və həyata keçirilməkdə olan işlər onu göstərir ki, Azərbaycanın 2025-ci ildə də daha möhtəşəm yeniliklərinin və yüksəlişinin şahidliyini edəcəyik.

Azərbaycan Respublikasında 2025-ci il "Konstitusiya və Suverenlik İli" elan edilib və Prezident İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb.

Sərəncam Azərbaycan Konstitusiyasının bəyan etdiyi niyyətlərdən biri kimi ərazi bütövlüyümüzün tam bərpa olunduğu, 2025-ci ildə Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümü nəzərə alınaraq imzalanıb.

Bu gün bütün dünya azərbaycanlıları haqlı olaraq müstəqil Azərbaycanla fəxr edirlər. Bu gün dünya azərbaycanlıları Dünya azərbaycanlılarının həmrəyliyi gününü tam yeni bir ovqatla qeyd edirlər. Artıq dünya azərbaycanlıları bütün Azərbaycan xalqı kimi ruh yüksəkliyi ilə, başını dik tutub, alnıaçıq, üzüağ yaşayırlar.

Möhtərəm Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya qarşıdan gələn Dünya azərbaycanlılarının həmrəyliyi günü və Yeni il münasibəti ilə səmimi təbriklərimi çatdırmaq istəyirəm və onlara bu şərəfli fəaliyyətlərində və irəli sürdükləri bütün təşəbbüslərdə uğurlar arzulayıram.

Eyni zamanda, xalqımızı, hörmətli Sahibə xanım, Sizi və Milli Məclisin bütün üzvlərini, media nümayəndələrini qarşıdan gələn Dünya azərbaycanlılarının həmrəyliyi günü və Yeni il münasibəti ilə ürəkdən təbrik edir, şəxsi həyatınızda və peşəkar fəaliyyətinizdə uğurlar arzulayıram.

**Nigar Məmmədova.** Azərbaycanda nikah və ailə münasibətlərinin hüquqi baxımdan tənzimlənməsi dövlət tərəfindən həyata keçirilir. Bu sahədə ölkəmizdə təkmil hüquqi və qanunvericilik bazası formalaşıb. Bu gün müzakirə etdiyimiz uyğunlaşdırma xarakterli dəyişikliyi özündə ehtiva edən layihə də nikah yaşının azaldılması ilə bağlı istisnanın ləğv edilməsini nəzərdə tutur ki, bu da prosesə töhfə verəcək.

Erkən nikahların qarşısının alınması istiqamətində icra olunan dövlət proqramlarını, intensiv maarifləndimə işlərini qeyd etməliyik. Erkən nikahlar insan hüquq və azadlıqlarının təmin edilməsinə, cəmiyyətin sağlam gələcəyinə zərbə vuran fəsadlara səbəb olur. Onların hərəkətverici motivi və səbəbi təhsilin əhəmiyyətini, qızların gələcək sosial rolunun əhəmiyyətini dərk etməmək və təhsilin məhdudlaşmasıdır. Bu, birbaşa ailə və nikah institutunu zəiflədir.

Belə ki, erkən nikah fərdlərə, onların uşaqlarına, bütövlükdə, cəmiyyətə mənfi təsir göstərir. Xüsusi ilə erkən nikaha daxil olan qızlar ana və uşaq ölümü, təhsildən və inkişafdan məhrum edilmə, sosial və iş imkanlarının məhdudlaşması, məişət zorakılığı kimi ciddi problemlərlə üzləşirlər.

Eyforiya vəziyyətində olan yeniyetmələr gələcək həyatın reallıqlarını aydın şəkildə qiymətləndirmək imkanından məhrumdurlar. Ailə qurmaq istəyən şəxsin psixoloji cəhətdən tam formalaşması əsas şərtdir. Erkən nikaha daxil olan şəxs özünü güclü hesab etmədiyindən, psixoloji cəhətdən suisidə, emosional sarsıntıya meylli olur. Çünki psixoloji cəhətdən tam formalaşmayan şəxs ciddi münasibətlərə də hazır deyil.

Ailə münasibətlərinə daxil olmağın əsas şərtlərindən biri xüsusi ilə zərif cinsin nümayəndələrinin özünə əmin formada nikaha daxil olmasıdır. Bu, eyni zamanda, mümkün məişət zorakılığının qarşısının alınmasına da təsir edir.

Digər tərəfdən, nikaha daxil olan valideyn, xüsusi ilə də ana öz övladını yetişdirmək üçün lazımi intellektə və bacarığa malik olmalıdır. Nəzərə alsaq ki, kiçik yaşda olan uşaqların inkişafı ilk növbədə valideyndən asılıdır, belə olan halda valideynin savadı, onun özü ilə harmoniyada olması gələcək ailə institutu və gələcək nəslin sağlam ruhda formalaşmasına birbaşa təsir edən faktorlardandır. Bir sözlə, erkən nikahlardan yayınmaq bilavasitə intellektin artmasına, psixoloji problemlərin, boşanmaların, məişət zorakılığının azalmasına, gələcək nəsillərin daha sağlam yetişdirilməsinə zəmin yaradır.

Erkən nikahların qarşısını almaq məqsədi ilə aparılan maarifləndirmə işlərinə yalnız uşaqlar və şagirdlər deyil, eyni zamanda, müəllimlər, din xadimləri, valideynlər cəlb edilməli, erkən nikahın fəsadları haqqında dolğun məlumatlar çatdırılmalıdır. Bu mənada mən dövlətin apardığı siyasətə dəstək olaraq, vətəndaşlarımıza, ailələrə müraciət edərək erkən nikahlardan yayınmağa səsləyirəm. Bu bizim sağlam genefondumuz üçün vacibdir.

Yeri gəlmişkən, qanunda edilən müvafiq dəyişiklikləri dəstəkləyirəm və layihənin lehinə səs verirəm.

# MÜNDƏRİCAT

29 dekabr 2024-cü il ............................................................ 3

Edilməmiş çıxışların mətnləri............................................... 80

Yeddinci çağırış

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİ İCLASLARININ

PROTOKOLLARI
VƏ
STENOQRAMLARI

Birinci sessiya
Payız

19-cu cild

29 dekabr 2024-cü il

Buraxılışına məsul
***Hafiz Babayev***

Azərbaycan Respublikasi Milli Məclisinin mətbəəsi.
Bakı, Azad Mirzəyev küçəsi, 235.
Format 60x84 1/16. Çap vərəqi  5,5. Sifariş 13. Tiraj 150.